# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

02 aprel
2026-cı il,
cümə axşamı
№ 054 (7121)
Qiymәti
60 qəpik




Milli azadlıqdan
şirin nemət yoxdur!

# İkinci görüş

## TDT hökumət başçıları Bakıda...



Bax səh. 2

## Təhlükəsiz, rahat və etibarlı...

Bax səh. 2



Bax səh. 4

## YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib

## Azərbaycan və Çin birgə İnvestisiya Fondu yaradır

İqtisadiyyat naziri Mikayıl Cabbarovun İpək Yolu Fondunun baş icraçı direktorunun müavini, İnvestisiya Komitəsinin üzvü Si Xinbo ilə görüşündə Azərbaycan və Çin arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi və iqtisadi əlaqələrin daha da inkişaf etdiyi vurğulanıb. Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatların və yaradılmış əlverişli investisiya mühitinin qeyri-neft-qaz sektoru və texnologiyalar sektorunun inkişafına verdiyi töhfələr, bu sahədə xarici investorlarla birgə icra olunan layihələrin əhəmiyyəti xatırladılıb. Sağlam biznes mühiti və təşviqləri sayəsində Çinin innovasiya şirkətlərinin Azərbaycana artan marağı fonunda əməkdaşlığın yeni istiqamətləri üzrə təşəbbüslər yüksək dəyərləndirilib. Si Xinbo birgə sərmayə planlarını daha da irəliyə aparmaq və innovasiya transfertlərinin çoxşaxəliliyini təmin etmək məqsədilə Azərbaycan İnvestisiya Holdinqi və İpək Yolu Fondu arasında birgə investisiya təsisatının yaradılması təklifini dəstəkləyib. Bildirib ki, İnvestisiya...

Bax səh. 3

## Artıq Kəlbəcərin işğalı gününü qeyd etmirik...



Bax səh. 5

### Böyük quruculuq və bərpa işləri həyata keçirilir

## SOCAR beynəlxalq enerji şirkətinə çevrilir

Bax səh. 4

## Çin və Pakistanın sülh təşəbbüsləri...

Bax səh. 7

## Seçki, 102-ci baza və Samvel Karapetyan...

Bax səh. 6



## ABŞ BMT-dən çıxır?

Bax səh. 7

## Parisin qərarı, Trampın xəbərdarlığı...

Bax səh. 6

# İkinci görüş

## TDT hökumət başçıları Bakıda...

"Türk əsri" adlandırılan XXI əsr türkdilli dövlətlərin həyatında olduqca müstəsna yer tuta bilər. 2020-ci ildə Azərbaycanın Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturası qurması, yeni reallıqlar formalaşdırması və nəticə etibarı ilə bölgəni qurulan yeni iqtisadi nizamın mərkəzinə inteqrasiya etməsi, ümumilikdə, Türk dövlətlərinə yeni inkişaf mərhələsi vəd edir. Bakı Şərq-Qərb kontinental logistikasını məhz Mərkəzi Asiya, Cənubi Qafqaz və Türkiyə üzərindən keçirməklə bu yeni struktura yön verib.

Bakının Türk dövlətlərinin qarşılıqlı inteqrasiyasının güclənməsində oynadığı rol yalnız iqtisadi-ticari kontentlə məhdudlaşmır. Azərbaycan daim türkdilli dövlətlərin qarşılıqlı əlaqələrinin güclənməsinə, hətta bir çox başqa sferalarda - məsələn, hərbi təhlükəsizlik, siyasi dəstək, humanitar əlaqələndirmə kimi məsələlərdə də yaxınlaşmasına töhfə verir. Bakı illərdir ki, Türk Dövlətləri Təşkilatının ayrı-ayrı strukturlarının toplantısının keçirildiyi, müzakirələrin aparıldığı ünvan kimi şöhrət qazanıb. Bakıda, Şuşada, Qəbələdə keçirilən Zirvə görüşləri quruma daxil olan ölkələrin iqtisadi potensialının inkişafı ilə bağlı yeni perspektivlər yaradır, əməkdaşlığın inkişafına müsbət təsir göstərir.

### İqtisadi prioritetlər...

Yeri gəlmişkən, ölkəmiz növbəti dəfə TDT-nin mühüm toplantılarından birinə ev sahibliyi edir. Belə ki, 1-2 aprel tarixlərində Bakıda TDT üzv dövlətlərin baş nazirlərinin ikinci görüşü keçirilir. Tədbirdən öncə mətbuata açıqlamasında Türk Dövlətləri Təşkilatının Baş Katibi Kubanıçbek Ömüraliyev iclasda iqtisadi və nəqliyyat logistika məsələlərinin müzakirə olunacağı ilə bağlı fikirlərini bölüşmüşdü.

Qeyd edək ki, üzv dövlətlər arasında nəqliyyat əməkdaşlığının inkişafı hər zaman Türk Dövlətləri Təşkilatının əsas prioritetlərindən biri olub. Azərbaycanın səyi və təşəbbüsü ilə ərsəyə gələn, təhlükəsizliyi təmin olunan Trans-Xəzər Beynəlxalq Şərq-Qərb Orta Dəhlizi (Orta Dəhliz) boyunca nəqliyyat əlaqələri günü-gündən güclənir. Bu istiqamətdə əlaqələndirmənin mexanizmləri isə "Türk Dünyası 2040 Baxışı" və "TDT-nin 2022-2026 Strategiyası" adlı əsas strateji sənədlərə uyğun olaraq tənzimlənir. 2013-cü ildə "Qardaş Limanlar Əlaqəsi və Əməkdaşlıq Memorandumu"nun imzalanması ilə başlayan Qardaş Limanlar prosesi, TDT üzv dövlətlər arasında dəniz və quru limanlarının əməkdaşlığının gücləndirilməsini hədəfləyib. Başlanğıcda Bakı (Azərbaycan), Samsun (Türkiyə) və Aktau (Qazaxıstan) limanlarını əhatə edən təşəbbüs, 2019-cu ildə Qazaxıstanın Kuryk Limanını da daxil etməklə genişləndi. 2021-ci ildə Türkiyənin Mersin Limanı və Özbəkistanın quru limanları - Universal Logistics Services, Akhtachi və Termez Cargo Center - prosesə qoşuldular. Bu təşəbbüs texniki mübadilələrin aparılmasını, bilik paylaşımını və bölgədə limanlararası əməkdaşlığın inkişafı üçün birgə layihələrin hazırlanmasını təşviq edir. Təşkilatın üzv dövlətləri arasında qarşılıqlı dəstək və koordinasiyanı gücləndirmək məqsədini daşıyır.

2024-cü ildə TDT-nin himayəsi altında yaradılan Logistika Mərkəzləri və Yükdaşıyıcılar Alyansı türk ölkələri arasında logistika mərkəzlərini, daşıyıcıları, terminalları və limanları birləşdirməyi məqsəd qoyub. Məqsədlər arasında nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi, əməkdaşlığın gücləndirilməsi və innovativ, səmərəli yükdaşıma həlləri üçün dövlət-özəl tərəfdaşlıqların təşviqi yer alır.



### Yeni dövrün inteqrasiya imkanları...

Vurğulandığı kimi, nəqliyyat-logistika istiqaməti TDT-nin qlobal təsir sisteminin ən strateji dayaqlarından biridir. Orta Dəhliz artıq Avrasiyanın ən dinamik ticarət arteriyasına çevrilib. Çin-Avropa yükdaşımalarının böyük hissəsi bu marşrut üzərindən həyata keçirilir. Azərbaycanın təşəbbüsü ilə bu dəhlizin infrastruktur əsasları formalaşdırılıb: Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Limanı, Ələt azad iqtisadi zonası, Zəngəzur dəhlizi (TRIPP) və yeni əməkdaşlıq pesrpektivləri TDT-nin iqtisadi xəritəsini tamamilə dəyişib. Zəngəzur dəhlizinin (TRIPP) açılması yalnız Azərbaycan və Türkiyə üçün deyil, bütün türk dünyası üçün tarixi geoiqtisadi hadisə olacaq. Bu, həm Asiya ilə Avropa arasında fasiləsiz quru əlaqəsini təmin edir, həm də TDT-ni bütün Avrasiyanın logistika mərkəzinə çevirir. TDT dövlətləri bu dəhlizlər vasitəsilə həm enerji, həm ticarət, həm də təhlükəsizlik baxımından bir-birinə sıx inteqrasiya olunmuş sistem formalaşdırır.

Paralel olaraq iqtisadi əməkdaşlıq siyasi münasibətlərin sabitləşməsi üçün də ən güclü mexanizmlərdəndir: Zəngəzur dəhlizi (TRİPP) məhz bu baxımdan da böyük önəm daşıyır. Bu layihə qütblərarası siyasi dialoqun intensivləşməsi, qarşılıqlı etimadın artması və münaqişə risklərinin azalması üçün vacibdir. Bu baxımdan Zəngəzur dəhlizi (TRIPP) həm Qafqazda və Mərkəzi Asiyada geosiyasi balansın yenilənməsi, həm illərdir ki, rəqabətə çevrilmiş qitələrarası münasibətlərin işgüzar modelinin formalaşdırılması, həm də yeni əməkdaşlıq mühitinin yaradılması üçün mühüm alət sayılır.

### Mövcud geosiyasi risklər fonunda...

Görüşün keçirilmə dövrünü diqqətə alsaq, iqtisadi münasibətlər sisteminin hazırkı siyasi vəziyyətlə əlaqəsinə də toxunulması təbii sayılmalıdır. Yaxın Şərqdə davam edən münaqişənin TDT coğrafiyasına da sirayət etməməsi mümkün deyil. Bu mənada, keçirilən toplantı xüsusi anlam daşıyır. Təsadüfi deyil ki, münaqişə başlanan vaxtdan indiyə qədər TDT-nin fərqli formatda bir neçə görüşü baş tutub - məsələn, martın əvvəlində İstanbulda Türk Dövlətləri Təşkilatı Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi görüşü keçirilib. Ardından isə TDT üzv ölkələrin dövlət başçılarının köməkçiləri də Macarıstanın paytaxtı Budapeştdə görüşdülər. Görüşdə təşkilata üzv dövlətlərin yüksək səviyyəli nümayəndələri iştirak edib. Müzakirələr zamanı təhlükəsizlik sahəsində əməkdaşlığın gücləndirilməsi, nəqliyyat və logistika layihələrinin genişləndirilməsi, eləcə də regional və qlobal çağırışlar fonunda koordinasiyanın artırılması əsas prioritetlər kimi önə çıxıb. Artan qeyri-müəyyənlik və geosiyasi risklər iqtisadi güc mərkəzlərini daha dayanıqlı və təhlükəsiz nəqliyyat marşrutları axtarmağa vadar edir - bu kontekstdə isə Şərq-Qərb istiqamətində yüklərin fasiləsiz və təhlükəsiz daşınmasını təmin edən Orta dəhliz, Zəngəzur dəhlizi (TRIPP) ön plana çıxır. Çünki bu dəhliz Çin ilə Avropa arasında ən qısa və effektiv marşrutlardan biri kimi diqqət çəkir. Bu dəhliz Qazaxıstan, Azərbaycan və Türkiyə üzərindən keçərək Xəzər dənizi vasitəsilə yüklərin daşınmasını mümkün edir. Xüsusilə Xəzər dənizi üzərindən qurulan logistika xətləri bu marşrutun əsas sütunlarından biridir. Mövcud risklər fonunda bu xəttin inkişafı təkcə iqtisadi deyil, həm də strateji təhlükəsizlik məsələsinə çevrilir.

Region ölkələri üçün Zəngəzur dəhlizinin (TRIPP) cəlbediciliyi onun çevikliyində və alternativlik imkanında özünü göstərir. Ənənəvi marşrutlarla müqayisədə bu yol daha az siyasi risklərə məruz qalır və ticarət axınlarının şaxələndirilməsinə şərait yaradır. Bu isə xüsusilə qlobal təchizat zəncirlərində baş verən dəyişikliklər fonunda böyük əhəmiyyət kəsb edir.

Məhz bu reallıqlar fonunda Bakı şəhərində keçirilən baş nazirlərin görüşü xüsusi diqqət çəkir. Görüş çərçivəsində tərəflər dəhlizlərin inkişafı, Xəzər üzərindən daşımaların artırılması və infrastruktur layihələrinin koordinasiyası məsələlərini müzakirə edirlər. Bu, yalnız iqtisadi əməkdaşlıq deyil, eyni zamanda regionun nəqliyyat təhlükəsizliyinin təmin olunmasına yönəlmiş bir addım kimi qiymətləndirilə bilər.

Nəticə etibarilə, Bakı müzakirələri TDT ölkələri üçün həm iqtisadi inteqrasiyanı dərinləşdirir, həm də geosiyasi risklərə qarşı kollektiv hazırlıq mexanizmi formalaşdırır. Bu baxımdan, Bakı görüşü regional əməkdaşlığın yeni mərhələyə keçidinin göstəricisi kimi çıxış edir.

**P.İSMAYILOV**

# Təhlükəsiz, rahat və etibarlı...

## Qanunsuz daşınmaların qarşısı alınacaq, sərnişindaşımada xidmətin keyfiyyəti artırılacaq



Prezident İlham Əliyev "Avtomobil nəqliyyatı haqqında" qanunda dəyişiklik edilməsi barədə" 3 mart 2026-cı il tarixli qanunun tətbiq barədə sərəncam imzalayıb. Sənədə əsasən, Nazirlər Kabineti qanunun 15.5-ci maddəsinə uyğun olaraq, qeyri-müntəzəm sərnişin daşımalarında istifadə edilən avtonəqliyyat vasitələrinə dair tələblərin müəyyənləşdirilməsi məqsədilə 3 ay müddətində "Müntəzəm və taksi minik avtomobili ilə sərnişin daşımalarında istifadə olunan avtonəqliyyat vasitələrinin texniki göstəriciləri, daxili və xarici tərtibatına dair tələblər"də müvafiq dəyişiklik edilməlidir.

Yenilənmiş qanuna əsasən, ölkədaxili sifarişli daşımalara buraxılış vəsiqəsi almaq istəyənlər aşağıdakı sənədləri də təqdim etməli olacaqlar:

* Sürücünün narkotik sərxoşluq vəziyyətinin, narkotik vasitələrin və psixotrop maddələrin istehlakı hallarının müəyyən edilməsi üçün aparılan tibbi müayinənin nəticəsi barədə məlumatı;

* Avtonəqliyyat vasitələrinin texniki vəziyyətinin reysqabağı yoxlanılmasının, sürücülərin reysqabağı tibbi müayinəsinin təşkili imkanı barədə sənədləri və ya müvafiq xidmətlərdən istifadə olunmasına dair texniki məntəqə və tibb məntəqəsi ilə müqavilələri;

* Ümumi istifadədə olan avtomobil nəqliyyatı ilə daşımaları yerinə yetirən sürücülərin xüsusi hazırlıq keçməsini təsdiq edən sənədləri;

* Qeyri-müntəzəm sərnişin daşımalarına münasibətdə avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlərin fərdi qəza sığortası;

* Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin, həmçinin avtonəqliyyat vasitəsi sürücüsünün bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığortalanmasını təsdiq edən müvafiq icbari sığortası;

### Avtobusla səfər edən vətəndaşlar da sığorta olunacaq

Bundan başqa, ölkədaxili sifarişli daşımalara buraxılış vəsiqəsinin verilməsi üçün tələblər sərtləşdirilib. Belə ki, "Avtomobil nəqliyyatı haqqında" qanuna edilən dəyişikliklərə əsasən, ölkədaxili sifarişli daşımaların növü olan qeyri-müntəzəm sərnişin daşımalarına münasibətdə, eləcə də müntəzəm beynəlxalq və şəhərlərarası (rayonlararası) sərnişin daşımalarına münasibətdə icazənin alınması üçün icbari sığorta mexanizmi tətbiq ediləcək. Yəni bu o deməkdir ki, avtonəqliyyat vasitəsi ilə daşınan sərnişinlər də özlərini fərdi qəza sığortası ilə sığortalayacaqlar. Bundan başqa, qeyri-müntəzəm sərnişin daşımalarını həyata keçirən şəxslər, yeni sürücülər bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta olunacaqlar. Yuxarıda adları çəkilən təsdiqedici sənədləri olmayan şəxslərin və daşıyıcı şirkətlərin müntəzəm və qeyri-müntəzəm sərnişin daşımalarında istifadə hüququnun qarşısı alınacaq.

Nəqliyyat məsələləri üzrə ekspert Ərşad Hüseynov dəyişiklikləri şərh edərkən bildirib ki, nəqliyyat sahəsindəki son dəyişikliklərin taksi fəaliyyətinə heç bir aidiyyəti yoxdur. Dəyişikliklər "Avtomobil nəqliyyatı haqqında" qanuna edilib və ölkədaxili avtomobil nəqliyyatını, xüsusilə də sifarişli daşımalar (qeyri-müntəzəm) sahəsini əhatə edir. Əsas yenilik isə icazə üçün təqdim olunan sənədlərin dairəsinin genişləndirilməsi və tələblərin sərtləşdirilməsidir. "Yeni qaydalara əsasən, sifarişli daşımalar həyata keçirən avtobus və yük avtomobili sürücüləri xüsusi hazırlıq keçməlidirlər. Bu hazırlıq Azərbaycan Yerüstü Nəqliyyat Agentliyi tərəfindən təşkil olunur və sürücülər müvafiq sənəd əldə etməlidir. İcazə almaq üçün bütün sənədlər AYNA-nın portalına təqdim olunmalıdır".

Ekspert əlavə edib ki, avtobuslarla sərnişindaşıma zamanı fərdi qəza sığortası tələbi yeni deyil, sadəcə bu sənəd də icazə üçün təqdim edilməli olan aktlara əlavə olunub. Sərnişinlərin fərdi qəza sığortası məcburidir və sənəd AYNA-ya təqdim olunacaq.

Göründüyü kimi, yeni qaydalar ölkə üzrə qanunsuz daşınmaların qarşısını almağa yönəlib və bu sahədə nəzarətin gücləndirilməsini nəzərdə tutur və qanunvericilikdə nəzərdə tutulan bu dəyişikliklərin daşınma qiymətlərinə təsir etməyəcək. Burada əsas məqsəd sərnişindaşımada xidmət keyfiyyətinin artırılması və təhlükəsizliyin təmin olunmasıdır. Çünki bir sıra hallarda yol-nəqliyyat hadisələri zamanı daşıyıcı şirkətin və ya sürücünün sığortasının olmadığı, nəqliyyat vasitəsinin isə ümumiyyətlə daşınma üçün yararsız olduğu ortaya çıxır ki, bu da həmin sahədə nəzarətin yetərli olmamasından xəbər verir. Bu baxımdan, yeni dəyişikliklər sərnişindaşıma fəaliyyətində nəzarətin gücləndirilməsini təmin etməklə, bu sahədə təhlükəsizliyi möhkəmləndirəcək.

### Daşıyıcı şirkətlər və şəxslər elektron reyestrdə qeydə alınacaq

Yeni qaydalarla yanaşı, daşıyıcı şirkət və fiziki şəxslər Nazirlər Kabinetinin "Qeyri-müntəzəm sərnişin daşınması üçün formulyarın forması"nın tələblərinə də riayət etməlidirlər. Həmin qərara əsasən, Bakı, Sumqayıt və Gəncə şəhərlərində avtomobil nəqliyyatı ilə sərnişin daşınması sahəsində idarəetmənin təkmilləşdirilməsinin tələbləri müəyyən edilib. Tələblərə əsasən, daşıyıcı şirkətlər və şəxslər aiddiyatı dövlət orqanında qeydə alınmalı, sərnişin avtonəqliyyat vasitəsi haqqında məlumatları (nəqliyyat vasitəsinin markası və modeli, dövlət qeydiyyat nömrəsi, buraxılış kartının qeydiyyat nömrəsi, qeydiyyata alındığı dövlət, habelə icazə verilmiş oturacaq yerlərinin sayı), sərnişinlərin daşınması marşrutunun sxemi, sərnişinlərin siyahısı və digər zəruri informasiyaları həmin reyestr bazasında yerləşdirməlidir. Qeyri-müntəzəm sərnişin daşınmaları üçün formulyar "AYNA" informasiya sistemində elektron qaydada doldurulduqdan sonra daşıyıcının və ya sifarişçinin gücləndirilmiş elektron imzası ilə imzalanmalıdır.

Eyni zamanda, şəhərlərarası sərnişin daşımalarda vahid dispetçer mərkəzinin yaradılması, habelə vahid elektron bilet satış sisteminin qurulması və digər yerüstü nəqliyyat növləri üzrə bilet satışı sistemləri ilə inteqrasiya da diqqət mərkəzində saxlanılacaq.

Beləliklə, yeni qaydaların tətbiqi nəqliyyat sahəsində idarəetmənin təkmilləşdirilməsinə, texniki baxımdan köhnə olan daşıyıcı nəqliyyat vasitələrinin dövriyyədən çıxarılmasına və daha müasir nəqliyyat vasitələrinin cəlb edilməsinə imkan verəcək. Bu isə sərnişindaşımada və ictimai nəqliyyat sektorunda təhlükəsizlik, rahatlıq və etibarlılıq baxımından mühüm əhəmiyyət kəsb edəcək.

**E.CƏFƏRLİ**

# Azərbaycanda dağ-mədən və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı hazırlanacaq

Prezident İlham Əliyev Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafının təmin edilməsi ilə bağlı bir sıra tədbirlər haqqında sərəncam imzalayıb.

Sərəncamda bildirilir ki, Azərbaycan Respublikasında dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafı iqtisadiyyatın şaxələndirilməsi, sənayeləşmənin dərinləşdirilməsi, ixracın strukturunun genişləndirilməsi və regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi baxımından strateji əhəmiyyət kəsb edir.

"Ötən illərdə həyata keçirilən islahatlar nəticəsində alüminium, qızıl, gümüş və misin sənaye istehsalının əsasları formalaşdırılmış, metal filizi ehtiyatlarının bir hissəsi sənayedə istifadəyə yönəldilmişdir. "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti vasitəsilə nəcib və əlvan metal yataqları üzrə sənaye hasilatı təşkil edilmiş, müasir emal infrastrukturu qurulmuşdur.

Daşkəsən və Gədəbəy rayonlarında filiz emalı müəssisələrinin yenilənməsi, habelə işğaldan azad edilmiş ərazilərdə perspektivli yataqların istismara verilməsi dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin istehsal və ixrac imkanlarını genişləndirmişdir. Bununla yanaşı, Qərb Sənaye Parkının yaradılması dəmir filizi ehtiyatlarının emalını genişləndirməyə və metallurgiya sənayesində dəyər zəncirinin dərinləşdirməyə imkan yaradır.

Eyni zamanda, mövcud mineral-xammal bazasından səmərəli istifadə, hasilat və emal mərhələləri arasında istehsal əlaqələrinin gücləndirilməsi, infrastruktur və logistika qərarlarının uzlaşdırılması, eləcə də dövlət-özəl tərəfdaşlığının genişləndirilməsi istiqamətində əlavə tədbirlər görülməsi zəruridir.

Qlobal iqtisadiyyatda gedən enerji keçidi və yüksək texnologiyaların inkişafı fonunda metallara tələbatın yüksəlməsi bu sahənin strateji əhəmiyyətini daha da artırır. Azərbaycan Respublikasının zəngin mineral ehtiyatları, rəqabətqabiliyyətli enerji təminatı, sənaye təşviqi mexanizmləri və Orta Dəhliz üzərində yerləşməsi əlaqəli sənaye sahələrinin də dayanıqlı inkişafı üçün əlverişli şərait yaradır", - sərəncamda qeyd olunub.

Sərəncama əsasən, Nazirlər Kabineti:

"Azərbaycan Respublikasında 2027-2030-cu illərdə dağ-mədən (metal filizləri) və metallurgiya sənayesinin inkişafına dair Dövlət Proqramı"nın (bundan sonra - Dövlət Proqramı) layihəsini dörd ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etməli;

Dövlət Proqramının "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın və "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair II Dövlət Proqramı"nın hazırlanması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 may tarixli 611 nömrəli Sərəncamının 1.1-ci bəndində nəzərdə tutulan "Azərbaycan Respublikasının 2027-2030-cu illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın layihəsində əhatə olunmasını təmin etməli;

dağ-mədən (metal filizləri) və metallurgiya sahəsində özəl sektor tərəfindən hazırda icra olunan və ya icrası planlaşdırılan layihələrin Dövlət Proqramının layihəsində nəzərə alınmasını, habelə Dövlət Proqramı çərçivəsində dəstəklənməsi mexanizminin müəyyən olunmasını təmin etməli;

Dövlət Proqramında "Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyətinin istehsal gücünün "xammal?emal?son məhsul" dəyər zənciri üzrə artırılması və ixrac imkanlarının genişləndirilməsi məqsədilə aşağıdakı tədbirlərin nəzərdə tutulmasını təmin etməli:

elektroliz zavodu layihəsinin tamamlanması və 2030-cu ilədək illik istehsal gücünün 100 000 (yüz min) tona çatdırılması;

alüminium yayma məhsullarının istehsalı layihəsinin davam etdirilməsi və 2030-cu ilədək illik istehsal gücünün 50 000 (əlli min) tona çatdırılması;

Azərbaycan İnvestisiya Holdinqi tərəfindən hazırlanan texniki-iqtisadi əsaslandırmaya uyğun olaraq, maliyyələşdirmə mənbələrinin müəyyən olunmasını və aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə kalsinasiya və anodbişirmə zavodunun tikintisinin həyata keçirilməsini təmin etməli;

metallurgiya məhsullarının rəqabət qabiliyyətinin artırılması məqsədilə enerji və nəqliyyat tariflərinin təkmilləşdirilməsi, zərurət olduğu təqdirdə əlavə torpaq sahəsinin ayrılması və elektrik enerjisinə tələbatın ödənilməsi ilə bağlı tədbirlər görməli;

bu Sərəncamın 1.4-cü bəndində nəzərdə tutulan layihələrin, Azərbaycan İnvestisiya Holdinqi tərəfindən hazırlanan texniki-iqtisadi əsaslandırma nəzərə alınmaqla, dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilməsi üçün zəruri tədbirlər görməli;

bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, "Azərbaycan alüminiumu" Açıq Səhmdar Cəmiyyətinin:

aktivlərinin "Azəralüminium" Məhdud Məsuliyyətli Cəmiyyətinin balansına verilməsini təmin etməli;

kreditor borclarının, habelə dövlət təşkilatlarına olan və "Azərbaycan Alüminiumu" Səhmdar Cəmiyyətini idarə etmək hüququna dair Müqavilə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 31 mart tarixli 678 nömrəli Sərəncamına əsasən ödənilməsinə 25 il möhlət verilmiş, eləcə də Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondu qarşısında yaranmış borclarının silinməsi ilə bağlı zəruri tədbirlər görməli;

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq vergi öhdəliyinə xitam verilməsi ilə bağlı zəruri tədbirlər görməli;

bu Sərəncamın irəli gələn digər məsələləri həll etməlidir.

Sərəncamda "Azərbaycan alüminiumu" Açıq Səhmdar Cəmiyyətinin ləğv edildiyi vurğulanıb.

Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə bu Sərəncamın 2-ci hissəsi nəzərə alınmaqla, "Azərbaycan alüminiumu" Açıq Səhmdar Cəmiyyətinin qeyri-dövlət təşkilatları qarşısında təsdiq edilmiş borclarının qaytarılmasını Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti və ya qanunda nəzərdə tutulan digər maliyyə mənbələri hesabına müvafiq təsdiqedici sənədlər təqdim edildiyi tarixdən bir ay müddətində təmin etmək, Azərbaycan İnvestisiya Holdinqinə bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görmək tapşırılıb.

# Azərbaycan və Çin birgə İnvestisiya Fondu yaradır

## Yeni təsisatın prioritet iqtisadi sahələrdə sərmayələri təmin etməsi nəzərdə tutulur

İqtisadiyyat naziri Mikayıl Cabbarovun İpək Yolu Fondunun baş icraçı direktorunun müavini, İnvestisiya Komitəsinin üzvü Si Xinbo ilə görüşündə Azərbaycan və Çin arasında münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi və iqtisadi əlaqələrin daha da inkişaf etdiyi vurğulanıb. Ölkəmizdə iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatların və yaradılmış əlverişli investisiya mühitinin qeyri-neft-qaz sektoru və texnologiyalar sektorunun inkişafına verdiyi töhfələr, bu sahədə xarici investorlarla birgə icra olunan layihələrin əhəmiyyəti xatırladılıb. Sağlam biznes mühiti və təşviqləri sayəsində Çinin innovasiya şirkətlərinin Azərbaycana artan marağı fonunda əməkdaşlığın yeni istiqamətləri üzrə təşəbbüslər yüksək dəyərləndirilib. Si Xinbo birgə sərmayə planlarını daha da irəliyə aparmaq və innovasiya transfertlərinin çoxşaxəliliyini təmin etmək məqsədilə Azərbaycan İnvestisiya Holdinqi və İpək Yolu Fondu arasında birgə investisiya təsisatının yaradılması təklifini dəstəkləyib. Bildirib ki, İnvestisiya Fondu Azərbaycan-Çin iqtisadi əməkdaşlığını yüksək səviyyətə çatdırmaq, o cümlədən sənaye, enerji, maliyyə və digər prioritet sahələrdə investisiya layihələrinin həyata keçirilməsi və maliyyələşməsini təmin etmək baxımından dayanıqlı sərmayə institutuna çevrilə bilər.

### Cənubi Qafqazda Çin sərmayələrinin ən çox cəlb edən dövlət

Azərbaycan və Çin arasında həm sərmayə, həm də ticari dövriyyə son illərdə dayanmadan artır və son 10 ildə ən yüksək səviyyəyə çatıb. Belə ki, 2015-ci ildə isə qarşılıqlı mal dövriyyəsinin həcmi 500 milyon dollar idisə, 2025-ci ildə iki ölkə arasında əmtəə dövriyyəsinin həcmi əvvəlki illə müqayisədə 20 faiz artaraq və 3,8 milyard dollar təşkil edib. Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşına çevrilib, onun xarici ticarət dövriyyəmizdə payı 7,9 faiz olub, həmçinin idxal üzrə də lider mövqeyinə çıxıb və bu göstərici 17,69 faizə çatıb. Bu ticari balans dinamikası 2025-ci ilin yanvar-noyabr aylarında da artıb və əmtəə mübadiləsinin həcmi 4,2 milyard dolları ötüb. Beləliklə, Çin Cənubi Qafqazda Azərbaycanın birinci iqtisadi-ticari tərəfdaşı olmaqla bu bölgənin cəmi ticarət mübadiləsinin 70 faizə yaxınını Azərbaycanla həyata keçirir.

Çin, eyni zamanda, Cənubi Qafqazda ən çox sərmayələri Azərbaycana yönəldib. Asiya nəhənginin ölkəmizə yatırdığı investisiyaların həcmi 1 milyard dolları ötüb. Həmin sərmayələrdən başqa, Çin şirkətləri ölkəmizdə müxtəlif sahələrdə iri layihələr icra edib. Eyni zamanda, Azərbaycan özü də potensial sərmayədar dövlət kimi Asiyanın maliyyə sektorunda öz mövqeyini gücləndirir və Dövlət Neft Fondunun investisiya portfelinin 2,2 milyard dolları Çinin maliyyə-investisiya sektorlarını əhatə etməkdədir. Bu gün Azərbaycanda Çin kapitalı ilə 375 şirkət qeydə alınıb, onlardan 298-i ölkəmizdə aktiv fəaliyyət göstərir.

Göründüyü kimi, Çin aktiv investor kimi Azərbaycan iqtisadiyyatında mühüm yer tutmaqdadır. Bu ölkənin innovasiya və texnologiya şirkətləri ötən illər ərzində Azərbaycanın sənaye, energetika, rabitə, aqrar-sənaye sahələrində iri layihələrdə təmsil olunub. Torpaqlarımızın erməni işğalından azad edilməsindən sonra bu ərazilərdə təmsil olunan Çin şirkətlərinin də sayı kifayət qədər davamlı artıb. Çin şirkətləri işğaldan azad edilmiş ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyasının inkişaf etdirilməsi, inzibati və yaşayış binalarının avadanlıqlarla təchizatında fəal iştirak edir. Zəngilan, Ağdam və digər ərazilərdə inşa edilən infrastrukturlarda Çin texnologiyalarından geniş istifadə olunur.



### "Yaşıl investisiyalar"da yeni dövr

Hazırda idxalda birinci, ümumi xarici ticarətdə Azərbaycanın 4-cü tərəfdaşı olan Çinlə daha intensiv iqtisadi mübadilə qapıları açılır. Eyni zamanda, Çində 6 Azərbaycan Ticarət Evinin fəaliyyəti ölkəmizin rəqabətqabiliyyətli məhsullarının ixrac çeşidlərini artırmağa, eyni zamanda Çin kimi nəhəng bazardan digər coğrafiyalara ixracı şaxələndirməyə əlverişli fürsətlər yaradır. Həmçinin Çin şirkətləri investorlarla, Azərbaycanın "yaşıl enerji" bölməsinə sərmayə yatıran şirkətlərlə podratçı qismində çalışır. Eləcə də birbaşa fəal investor kimi çıxış edir. Çinin "PowerChina Resources Ltd" ölkəmizdə günəş elektrik stansiyası, eləcə də 2 QVt gücündə dənizdə külək enerjisi layihəsini həyata keçirməkdədir. "China Energy Overseas Investment Co. Ltd." şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzər dənizində külək enerjisi layihəsinin qiymətləndirilməsi və həyata keçirilməsinə başlanılıb. Müqaviləyə əsasən, minimum 2 QVt gücündə dənizdə külək elektrik stansiyasının tikintisi, istismara verilməsi və texniki xidmət üzrə əməkdaşlıq nəzərdə tutulur. Eləcə də "PowerChina Group" və "SOCAR Green" ilə birgə fəaliyyət çərçivəsində Hacıqabul rayonunda günəş elektrik stansiyası inşa edilir.

### Bakı və Pekin bölgənin iqtisadi xəritəsini dəyişir

Çinin qlobal rifaha və əməkdaşlığa açdığı transkontinental kommunikasiya olan "Bir kəmər, bir yol" təşəbbüsü də regional nəhəng investisiyaları təşviq edən layihədir. Bu təşəbbüsü açıq şəkildə dəstəkləyən və ilk qoşulan ölkələrdən biri kimi Azərbaycan yerləşdiyi geostrateji coğrafiyadabütün ölkələri kommunikativ bağlantılarda birləşdirir, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərində vahid logistika ailəsi formalaşdırır. Sözsüz ki, bu qlobal nəqliyyat arteriyalarında əsas tərəfdaş olan Çinə arxalanan ölkəmiz bu nəhəng multimodal marşrut üzərində tranzit biznesini də inkişaf etdirməyi hədəfləyir. Bu strateji planların daha da sürətlənməsində sözsüz ki, birgə investisiyaların artırılmasını da tələb edir.

Strateji tərəfdaş ölkələr olan Azərbaycan və Çin yeni çağırışlar fonunda iqtisadi inkişafın müasir gündəliyini müəyyən edir, daha ambisiyalı inkişaf hədəflərini qarşıya qoyur. Rəsmi Pekin inkişafın yeni konsepti elan etdiyi 2035-ci il hədəflərinə əsasən, qlobal iqtisadiyyatda liderliyi ələ keçirmək istəyir. Bunun üçün region ölkələri ilə daha sıx ticari-investisiya bağlarını genişləndirməyi vacib hesab edir. Azərbaycan hökuməti də Çin dövləti kimi uzunmüddətli iqtisadi hədəflər elan edərək daha güclü iqtisadiyyat quruculuğunu ali məqsədlərdən biri hesab edir.

### Hər iki ölkənin ortamüddətli inkişaf hədəfləri də oxşardır

Azərbaycanın 2030-cu ilə dair prioritetlərinə əsasən, davamlı inkişafın təmin edilməsi, birbaşa xarici investisiyaların cəlbinin genişləndirilməsi, biznes mühitinin daha da gücləndirilməsi, qüdrətli dövlət və yüksək rifah cəmiyyəti quruculuğuna nail olmaq üçün insan kapitalının və rəqəmsal iqtisadiyyatın genişləndirilməsi, iqtisadi suverenliyin möhkəmləndirilməsi kimi hədəflər müəyyənləşdirilib. Bu baxımdan regionun lider dövləti olan Azərbaycanla Asiya nəhəngi Çinin inkişaf yolu arasında oxşarlıq mövcuddur. Hər iki ölkənin iqtisadi ssenariləri də qarşıdakı illərdə birgə iqtisadi prioritetlərə uyğun fəaliyyət prinsiplərini icra etməyə imkan verir. Ötən il iki dövlət arasında imzalanmış Hərtərəfli Strateji Tərəfdaşlıq Haqqında Birgə Bəyannamənin əsas istiqamətlərindən biri qarşılıqlı sərmayə qoyuluşlarını artırmaq və bu sahədə investisiya təşviq mexanizmlərini təkmilləşdirməkdir. Yeri gəlmişkən, ötən il Azərbaycan Respublikasının Dövlət Neft Fondu ilə Çinin İnvestisiya Korporasiyası arasında Anlaşma Memorandumu imzalanıb ki, bu sənəd də qarşılıqlı maliyyə və sərmayə təşviqlərinin artmasında əhəmiyyətli rol oynayacaq. Eləcə də İqtisadiyyat Nazirliyi ilə Çin Xalq Respublikasının Kommersiya Nazirliyi arasında maneəsiz ticarət üzrə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsinə dair Anlaşma Memorandumu sərmayə gündəliyini inkişaf etdirmək üçün strateji çərçivə hesab edilə bilər.

Beləliklə, iki dövlət arasında əldə edilmiş strateji sənədlər və prinsiplərdən irəli gələrək, yaradılması nəzərdə tutulan İnvestisiya Fondu daha geniş investisiya partnyorluğunun möhkəm hüquqi bazasına çevriləcək.

*E.CƏFƏRLİ*

# YAP Sədrinin müavini ilə Ulusal Birlik Partiyasının Sədri arasında görüş keçirilib

Aprelin 1-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Türk Dövlətləri Təşkilatına (TDT) üzv dövlətlərin Hökumət başçılarının görüşündə iştirak etmək məqsədilə ölkəmizdə səfərdə olan Şimali Kipr Türk Cümhuriyyətinin (ŞKTC) Baş naziri, Ulusal Birlik Partiyasının (UBP) Sədri Ünal Üstelin rəhbərlik etdiyi nümayəndə heyəti arasında görüş keçirilib.

Görüşdə xalqlarımız arasında əlaqələrin tarixi ənənələrə, ortaq dəyərlərə, dostluq və qardaşlıq prinsiplərinə əsaslandığı qeyd olunaraq son illərdə Azərbaycan Respublikası ilə Şimali Kipr Türk Cümhuriyyəti arasında sıx təmasların və milli maraqlara əsaslanan qarşılıqlı fəaliyyətin gücləndirilməsinin əhəmiyyəti vurğulanıb. Fəal siyasi dialoq şəraitində iqtisadi, ticari, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə çoxşaxəli əməkdaşlıq üçün geniş potensialın mövcud olduğu bildirilib.

ŞKTC-nin Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv statusunda qəbul olunmasında Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin müstəsna rolunun Şimali Kipr Türk xalqı tərəfindən yüksək qiymətləndirildiyi qeyd olunub. Türk dünyasında işbirliyinin dərinləşdirilməsinin böyük önəm daşıdığı bildirilərək Türk Dövlətləri Təşkilatının mürəkkəb qlobal problemlərlə xarakterizə edilən müasir beynəlxalq münasibətlər sistemində mövqeyinin möhkəmləndirilməsinin mühüm strateji prioritet olduğu nəzərə çatdırılıb.

Görüş zamanı Türk dövlətlərinin hakim siyasi partiyaları arasında münasibətlərin genişləndirilməsinin də diqqət mərkəzində olduğu qeyd edilərək YAP-UBP əlaqələrinin mövcud vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub. 2023-cü il noyabrın 14-də Yeni Azərbaycan Partiyası, Türkiyənin hakim Ədalət və İnkişaf Partiyası və Ulusal Birlik Partiyası arasında imzalanmış üçtərəfli Anlaşma Memorandumundan irəli gələn vəzifələrin indiyədək uğurla icra olunduğu bildirilərək müxtəlif sahələrdə, o cümlədən gənclər arasında təmasların sıxlaşdırılmasının vacibliyi vurğulanıb. 2022-ci ildən başlayaraq hər il iyunun 15-də YAP-ın təşkilatçılığı ilə Şuşa şəhərində keçirilən beynəlxalq konfransın dost və tərəfdaş ölkələrin siyasi partiyaları arasında münasibətlərin inkişafı xüsusunda önəmi qeyd olunub. Qarşılıqlı səfərlər çərçivəsində faydalı fikir və təcrübə mübadiləsinin önəmi diqqətə çatdırılaraq ortaq hədəflərin gerçəkləşdirilməsi istiqamətində bundan sonra da məqsədyönlü birgə fəaliyyətin davam etdiriləcəyinə əminlik ifadə olunub.

Görüşdə qarşılıqlı maraq doğuran digər bir sıra məsələlərə dair fikir mübadiləsi aparılıb. Regional və beynəlxalq təhlükəsizliyə təhdid yaradan hallara qarşı sistemli mübarizənin önəmi vurğulanaraq bütün məsələlərin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyinə hörmət olunmaqla beynəlxalq hüquq normaları əsasında və sülh şəraitində həllinin zəruriliyi qeyd edilib.







# SOCAR beynəlxalq enerji şirkətinə çevrilir

## Şirkət Yaxın Şərqdə fəaliyyətini genişləndirməkdədir

Azərbaycanın milli neft korporasiyası olan Dövlət Neft Şirkəti (SOCAR) qlobal enerji sektorunda iri investor kimi mövqeyini möhkəmləndirməkdədir.

Bu günlərdə Qahirədə keçirilən 9-cu Misir Beynəlxalq Enerji Konfransı və Sərgisində (EGYPS 2026) Azərbaycanın qlobal enerji bazarına verdiyi töhfələr xüsusi vurğulanıb. Tədbirdə geosiyasi təsirlərin enerji təhlükəsizliyinə və əsas enerji dəhlizləri üzrə qlobal ticarətə yaratdığı risklər, tranzit müddətlərinin uzanması, enerji çatışmazlıqları, xərclərin artması və şirkətlərin həyata keçirdiyi fəaliyyətlər müzakirə olunub və bu proseslərdə



ölkəmizin etibarlı təchizatçı mövqeyi təqdir edilib. "Energos Infrastructure" şirkətinin baş icraçı direktoru Artur Regan, "Höegh Eiendom" şirkətinin prezidenti Erik Nyheim və "HEREMA S.A."nın baş direktoru Aristofanis Stefatos enerji sektorunda yeniliklərin tətbiqində Azərbaycanın rolunu yüksək dəyərləndiriblər.

Sərgidə SOCAR-ın müxtəlif regionlarda, o cümlədən Yaxın Şərqdəki sadiq tərəfdaşlıq fəaliyyəti müsbət dəyərləndirilib. Azərbaycanın etibarlı xam neft və qaz tədarükçüsü kimi son illərdə qaz ixracının əhəmiyyətli dərəcədə artırdığı vurğulanıb. Qeyd olunub ki, 2020-ci ilin sonlarından Yunanıstan, İtaliya və Bolqarıstan kimi ölkələrə əhəmiyyətli həcmdə qaz ixrac edilir. Hazırda Yunanıstanın təxminən 25 faizi, Bolqarıstanın 60 faizdən çoxu, İtaliyanın isə 20 faizdən artıq hissəsi Azərbaycan qazı ilə təmin olunur və bu göstəricilər artmaqdadır. Bildirilib ki, Azərbaycan qazı hazırda 16 ölkəyə, o cümlədən 10 Avropa İttifaqı ölkəsinə ixrac olunur. Yaxın Şərq və Aralıq dənizi regionu da SOCAR-ın diqqət mərkəzindədir və artıq 1 ilə yaxındır ki, Suriyaya qaz tədarük edilir.

**Misirdə nəhəng neft emalı kompleksi inşa edilir**

SOCAR-ın vitse-prezident V.Bəylərbəyov SOCAR-ın iri infrastruktur layihələrində uğurla iştirak etdiyini vurğulayıb. Bildirib ki, şirkət təkcə hasilat və ticarət sahəsində deyil, həm də beynəlxalq tərəfdaşlarla birlikdə infrastrukturun yaradılmasında fəal iştirak edir. SOCAR Yaxın Şərqdə həm hasilat, həm də nəql və satış sahələrində fəaliyyətini genişləndirməyi planlaşdırır. Misirin Dövlət Neft Korporasiyası ilə imzalanmış sazişə əsasən bölgədə yeni enerji layihələrinin icrası nəzərdə tutulur. Belə ki, Misirin Təbii Qaz Holdinqi (EGAS) və Dövlət Neft Korporasiyası (EGPC) arasında imzalanmış əməkdaşlığa dair çərçivə sazişlərinə əsasən, SOCAR bölgənin enerji təminatında payını daha da artırmağı hədəfləyir. EGPC-nin icraçı direktoru Salah Əbdülkərimin sözlərinə görə, sənəd SOCAR-ın neft və qaz məhsullarının Misir bazarına çıxışını daha da asanlaşdıracaq, şirkət təkcə xam neft tədarükü ilə kifayətlənməyəcək, Misirdə kəşfiyyat və hasilat sahələrində də aktiv iştirak edəcək. Qeyd edək ki, SOCAR ötən ilin ortalarından başlayaraq Misirə mayeləşdirilmiş təbii qaz (LNG) tədarük edir. Anlaşmaya əsasən, Misirdə Azərbaycan neftinin emalı, eləcə də "Azeri Light" markalı xam neftin Misirə ixracı imkanları nəzərdən keçirilir.

**Yaxın Şərq və Körfəz regionunda etibarlı investor**

Azərbaycanın milli neft korporasiyası xarici ölkələrdə müasir təchizat və idarəetmə sistemləri qurmaqla qlobal investor kimi özünü təsdiqləyir. Son illərdə Körfəz ölkələri və Yaxın Şərq regionunda nüfuzlu tərəfdaş kimi qəbul edilir. Azərbaycan Dövlət Neft Şirkəti bir çox ölkənin nüfuzlu enerji şirkətləri ilə sazişlər imzalayıb ki, həmin sənədlərin əsas məzmunu yeni idarətmə texnologiyalarının tətbiqini nəzərdə tutur. Neft Şirkəti ilə Birləşmiş Ərəb Əmirliklərinin "Emirates National Oil Company Group" ("ENOC Group") arasında kəşfiyyat, hasilat, rəqəmsallaşma, ticarət, marketinq istiqamətlərində əməkdaşlığın qurulması, BƏƏ-nin "Dragon Oil" şirkəti arasında imzalanan anlaşma memorandumuna əsasən, birgə neftqaz hasilatında yer alması, eləcə də "Crescent Petroleum" şirkəti ilə enerji sektorunun müxtəlif istiqamətləri üzrə tərəfdaşlıq qlobal etimadın nümunəsidir. SOCAR-ın Misirin Dövlət Neft Şirkəti ilə əməkdaşlığı da bölgənin enerji təchizatı və şaxələnməsi üçün əhəmiyyət daşımaqla, qlobal nüfuzun bir göstəricisidir.

SOCAR Mərkəzi Asiya bölgəsində də hasilat zonalarında aktiv investor kimi tanınır. 2025-ci ilin oktyabrında Qazaxıstanın "Samruk Kazına Azərbaycan İnvestisiya Holdinqi İnvestisiya Fondu MMC" ilə Azərbaycanın Dövlət Neft Şirkəti (SOCAR) arasında birgə investisiya mexanizminin təsis edilməsi üçün Çərçivə Sazişi" imzalanıb. Bu sənəd də beynəlxalq tərəfdaşlığın bir hissəsidir.

Həmçinin SOCAR ilə Özbəkistanın "Uzbekneftegaz" Səhmdar Cəmiyyəti arasında neft-qaz sənayesində yeni innovasiyaların və ağıllı idarətmənin tətbiq olunması sahəsində əməkdaşlığın inkişaf etdirilməsinə dair anlaşma memorandumu imzalanıb.

**ABŞ-la yeni enerji tərəfdaşlığı**

Dövlət Neft Şirkətinin Xəzərdə ən modern emal texnologiyalarını tətbiq etməsində yaxın tərəfdaşlarından biridə ABŞ-dır. SOCAR və ABŞ-ın SLB şirkəti arasında əldə edilmiş razılığa əsasən, Xəzərin Azərbaycan sektorundakı "Bahar" və "Qum-Dəniz" yataqlarının yenidən işlənməsinə start verilib. Bu tərəfdaşlıq perspektivli hasilat zonalarının müəyyən edilməsini, hərtərəfli rezervuar modelləşdirməsinin hazırlanmasını və bu ya-



taqlarda erkən hasilat sxemini (EPS) dəstəkləmək üçün quyu və qazma qurğuları proqramlarının layihələndirilməsini nəzərdə tutur.

25 il müddətinə nəzərdə tutulan müqavilənin investisiya portfeli 1 milyard dollar həcmində qiymətləndirilir. Müqavilə blokunda qaz ehtiyatları 25 milyard kubmetr təşkil edən yatağın işlənməsi SOCAR-ın neft hasilatının artmasına və uzunmüddətli strategiyasına mühüm töhfə verəcək.

Azərbaycan Dövlət Neft Şirkəti ilə İsrailin "Union Energy" şirkəti arasında Aralıq dənizi hövzəsindəki ən iri qaz yataqlarından biri olan "Tamar" layihəsi üzrə 10 faiz payın əldə edilməsinə dair sazişin imzalanması da mühüm qlobal dəyərin rəmzlərindən biridir. Bu sazişə əsasən, SOCAR İsrailin təbii qaz bazarına çıxış imkanı qazanıb. Azərbaycan bu perspektivli qaz blokunda investor və enerji tədarükçüsü statusu qazanmaqla Aralıq dənizi regionunda potensial enerji təchizatçısına çevriləcək.

**"Fitch Ratings" in yüksək reytinqi**

Dünya enerji zəncirlərinə inteqrasiya olunan Azərbaycan şirkəti, eyni zamanda, müasir rəqəmsal texnologiya layihələrində təmsil olunur. Məsələn, bir müddət əvvəl SOCAR və "Samsung E&A Co., Ltd." arasında imzalanmış anlaşma memorandumuna əsasən, enerji aktivlərinin səmərəliliyinin artırılması, istehsalın lokallaşdırılması, regional sənaye və təchizat mərkəzinin yaradılması, insan kapitalının inkişafı və karbonsuzlaşma üzrə əməkdaşlıq perspektivlərinin araşdırılması nəzərdə tutulur. Bu, SOCAR-ın rəqəmsal infrastrukturların gücləndirilməsi, innovativ və texnoloji tətbiqlər və müasir idarəetmə hədəflərinə xidmət edən strateji konsepsiyanın mühüm hissəsi hesab edilə bilər.

Məhz beynəlxalq etimad və nümunəvi təcrübənin nəticəsidir ki, "Fitch Ratings" agentliyi SOCAR-ı korporativ reytinq meyarlarını yaxşılaşdıran şirkət kimi Reytinqini yüksəldərək " BB" səviyyəsində müəyyən edib. SOCAR-ın reytinqinin artmasında qlobal neft təminatçısı kimi rolu ilə yanaşı, idarətmə və maliyyə bazarlarındakı korporativ fəaliyyəti də mühüm əhəmiyyət kəsb edir.

*E.CƏFƏRLİ*

# Artıq Kəlbəcərin işğalı gününü qeyd etmirik...

## Böyük quruculuq və bərpa işləri həyata keçirilir





Xalqımız zaman-zaman ağır itkilərə məruz qalıb, acılar yaşayıb. Tarixin bu günündə - 2 aprel 1993-cü ildə daha bir torpaq itkisinə məruz qaldıq. Söhbət Azərbaycanın dilbər guşələrindən biri olan Kəlbəcərin ermənilər tərəfindən işğal edilməsindən gedir. Bu işğala 27 ildən sonra - 2020-ci il noyabrın 25-də son qoyuldu. Hazırda işğaldan azad edilmiş digər ərazilərimizdə olduğu kimi, Kəlbəcərdə də Azərbaycan bayrağı əzəmətlə dalğalanır...

**60 min kəlbəcərlinin doğma yurd acısı...**

Xatırladaq ki, Kəlbəcər 1930-cu ilin 8 avqustunda inzibati rayon statusu alıb. Kəlbəcər qərbdə Ermənistan Respublikası, şimalda Daşkəsən, Göygöl, Goranboy, şimal-şərqdə Tərtər, şərqdə Ağdam, Xocalı, cənubda Laçın rayonları ilə həmsərhəddir. İşğala qədər rayonun 144 kəndi, 1 şəhəri və 1 şəhər tipli qəsəbəsi olub. Kəlbəcər şəhəri Bakıdan təxminən 450 km qərbdə, Bərdə - İstisu (Kəlbəcər) avtomobil yolunun kənarında, Tərtər çayı sahilində, sıldırım qayalıqlar üzərində yerləşir.

Kəlbəcərin işğalına qədər rayonda 19 ibtidai, 44 orta, 33 natamam orta məktəb, 1 qiyabi orta təhsil məktəbi, 1 peşə məktəbi, 1 texnikum (Tibb Texnikumu), 16 uşaq bağçası, 41 mədəniyyət evi, 44 klub, 1 şəhər mərkəzi xəstəxanası, 1 uşaq xəstəxanası, 9 kənd xəstəxanası, 23 kənd həkim ambulatoriyası və sair fəaliyyət göstərirdi. Mərkəzi hakimiyyətdən kömək almayan kəlbəcərlilər 1993-cü il mart ayının 23-dən aprel ayının 2-dək özlərindən qat-qat yaxşı təchiz olunmuş ermənilərə qarşı mərdliklə vuruşublar. 1993-cü ilin qiymətlərinə görə, işğal nəticəsində Kəlbəcərin xalq təsərrüfatına 703 milyard 528 milyon rubl ziyan vurulub. İşğal nəticəsində Kəlbəcərdən 53340 nəfər adam qovulub, 511 dinc əhali öldürülüb, 321 nəfər isə əsir götürülüb və itkin düşüb.

Kəlbəcərin işğalından əvvəl isə Ağdaban faciəsi baş verib. Kəlbəcər rayonunun 130 evdən ibarət Ağdaban kəndi tamamilə erməni separatçıları tərəfindən yandırılıb, kəndin 779 nəfər dinc sakininə qeyri-insani işgəncələr verilib. 67 nəfər qətlə yetirilib, 8 nəfər 90-100 yaşlı qoca, 2 nəfər azyaşlı uşaq, 7 nəfər qadın diri-diri odda yandırılıb, 2 nəfər itkin düşüb, 12 nəfərə ağır bədən xəsarəti yetirilib. Ağdaban faciəsi tarixdə bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayətlərdən biri sayılır. İşğal nəticəsində Kəlbəcərin 60 min nəfər əhalisi respublikanın 56 rayonunun 770 yaşayış məntəqəsində müvəqqəti məskunlaşmaq məcburiyyətində qaldı.




**AXC-Müsavat cütlüyünün xəyanətinin qurbanı...**

Kəlbəcər məhz xəyanət nəticəsində düşmənə təslim edilmişdi. Həmin dövrdə hakimiyyətdə olan AXC- "Müsavat" cütlüyünün səriştəsiz və xəyanətkar siyasəti rayonun işğalına şərait yaratdı. Ümumiyyətlə, vaxtilə siyasi hakimiyyətə gəlmək üçün bütün vasitələrə əl atan həmin qüvvələr bu yolda hətta suverenliyimizi belə təhlükə altında qoymaqdan çəkinməmişdilər. Məhz onların xəyanətkar fəaliyyəti nəticəsində torpaqlarımız ermənilər tərəfindən ard-arda ələ keçirilmişdi. Xatırladaq ki, həmin dövrdə Azərbaycanda hakimiyyət uğrunda mübarizə gedirdi və nə olursa-olsun, hakimiyyətə gəlmək istəyən Azərbaycan Xalq Cəbhəsi bu yolda bütün xəyanətlərə əl atırdı. 1993-cü ilin aprelində isə onların yaratdığı xaos, siyasi böhran, özbaşınalıq Kəlbəcərin də ermənilər tərəfindən işğal edilməsi ilə nəticələndi.

Kəlbəcər ən qədim insan məskənlərindən biri kimi tanınır və mağara düşərgələrində aparılmış arxeoloji tədqiqatlar sübut edir ki, ibtidai insan icmasının ilk əmək alətləri də bu yerlərdə yaradılıb. Rayonun dağ qalaları içərisində ən əzəmətlisi Lex qalasıdır. Lex qalası XIII-XIV yüzilliklərin abidəsidir. Kəlbəcərdə dünya əhəmiyyətli tarix-mədəniyyət abidəsi olan Gəncəsər və Xudavəng məbədləri də var. Bundan başqa, rayon ərazisi mədəniyyət abidələri və dini məbədlərlə zəngindir. Qaraçanlı kəndində Uluxan qalası, Tərtər çayının Bulanıq çayı ilə qovşağında yerləşən Alban kilsəsi, Qalaboynu kəndində Qalaboynu qalası, Comərd kəndində Comərd qalası, Camışlı kəndində Keşikçi qalası, Kəlbəcər şəhərində məscid, Başlıbel kəndində məscid, Otaqlı kəndində məscid, Soyuqbulaq kəndində Tağlıdaş körpüsü, Kəlbəcər Tarix-diyarşünaslıq Muzeyi, Aşıq Şəmşir adına Mədəniyyət Evi, Söyüdlü yaylağında Seyid Əsədulla ziyarətgahı uzun illər işğal altında qalaraq Ermənistan silahlı qüvvələri tərəfindən dağıdılıb.

Kəlbəcərin uzun müddət işğal altında saxlanılması nəticəsində həmin ərazidə bioloji müxtəlifliyə, o cümlədən flora və faunaya, xüsusi mühafizə olunan təbiət ərazilərinə ciddi zərər vurulub, ərazilərin yandırılması, su resurslarının çirkləndirilməsi, qiymətli ağac növləri ilə zəngin meşələrin, eləcə də təbiət abidələrinin, ümumilikdə yeraltı və yerüstü təbii sərvətlərin məqsədli şəkildə talan edilməsi nəticəsində də ekoloji tarazlıq pozulub. Kəlbəcər rayonunda 968 hektar ərazini əhatə edən "Qırmızı kitab"a daxil edilmiş ayıfındığı ağacları da kütləvi şəkildə qırılıb. Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik 7 relikt göl, o cümlədən Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, Canlıgöl, İşıqlı Qaragöl ciddi antropogen təsirə məruz qalıb.

Bunlarla yanaşı, Kəlbəcər rayonu ərazisi faydalı qazıntılarla, o cümlədən qızıl, gümüş, mis, xrom civə, tellur, selen və s. kimi yataqlarla zəngindir. Burada sənaye əhəmiyyətli Söyüdlü, Ağduzdağ və Qızılbulaq qızıl, Şorbulaq və Ağyataq civə və Mehmana polimetal yataqları xüsusilə əhəmiyyətlidir. Rayon ərazisində böyük ehtiyatlara malik əlvan və üzlük daşlar, inşaat materialları yataqları mövcuddur. İşğal altında qalmış Kəlbəcər rayonunun təbii sərvətləri - sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları uzun illər Ermənistan tərəfindən talan edilib.

**Kəlbəcər bir güllə atılmadan azad edilib**

Xatırladaq ki, Kəlbəcərin işğalından sonra BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul edib. Qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcərdən qeyd-şərtsiz çıxarılması tələb olunurdu. Ancaq BMT TŞ-nin bu və digər 3 qətnaməsi 27 il ərzində yerinə yetirilmədi. Azərbaycan ərazi bütövlüyünə özünün müzəffər ordusunun şanlı qələbəsi sayəsində nail oldu. 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən Vətən müharibəsində Silahlı Qüvvələrimiz XXI əsrin müharibəsini apardı və düşməni acınacaqlı məğlubiyyətə uğratdı. Düşmən ordusu cəmi 44 gün ərzində bütün döyüş qabiliyyətini itirdi. Ağır məğlubiyyət acısı yaşayan Ermənistan noyabrın 10-da onun üçün kapitulyasiya aktı sayılan üçtərəfli Bəyanatı imzalamaq məcburiyyətində qaldı. Həmin sənədə əsasən, məğlub Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarından döyüşsüz çıxmaq öhdəliyi götürdü. Razılaşmaya əsasən, Kəlbəcər noyabrın 25-də tamamilə boşaldılaraq Azərbaycana təhvil verildi. Həmin tarixdə Azərbaycanın Silahlı Qüvvələri rayon ərazisinə daxil olaraq burada nəzarəti ələ aldı. Prezident İlham Əliyevin sərəncamı ilə 25 noyabr Kəlbəcər Şəhər Günü elan edilib.

Artıq ötən ildən Kəlbəcər şəhərinə Böyük Qayıdış başlayıb. Hazırda keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını təmin etmək üçün davamlı tədbirlər həyata keçirilir.

*Nardar BAYRAMLI*

# Zelenski "2 ay" deyir, Peskov "bu gün"...



Ukrayna Prezidenti Volodimir Zelenski bildirib ki, Rusiya tərəfi Ukrayna Silahlı Qüvvələrinin iki ay ərzində Donbasdan çıxarılmasında təkid edir. Bu barədə Zelenski "X" sosial şəbəkəsində yazıb.

"Hazırda Rusiya bir daha ABŞ tərəfinə cəbhədəki məqsədlərinə çatmaq üçün yeni müddətlər səsləndirir. Mən təəccüblənirəm ki, buna necə inanmaq olar. Ruslar deyirlər ki, iki ay ərzində Donbası ələ keçirəcəklər. Guya Ukraynanın çıxmaq üçün iki ay vaxtı var və onda müharibə bitəcək. Amma əgər Ukrayna iki ay ərzində çıxmasa, o zaman Rusiya Donbası ələ keçirəcək və daha sonra başqa şərtlər irəli sürəcək. Məntiqi sual yaranır: əgər onların məqsədi yalnız Donbasdırsa, niyə daha irəli gedəcəklərini və sonra başqa şərtlərin olacağını deyirlər? Yəni söhbət heç də yalnız Donbasdan getmir. Onların məqsədləri bizə aydındır", - o bildirib.

Onun sözlərinə görə, Rusiya Silahlı Qüvvələri iki ay ərzində heç nəyi ələ keçirə bilməyəcəklər və bunu çox yaxşı başa düşürlər: "Onlar təzyiq göstərirlər. Bu gün Rusiya ABŞ-a təzyiq edir, çünki aralıq seçkiləri yaxınlaşır".

Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov isə jurnalistlərə açıqlamasında deyib ki, Zelenski artıq bu gün Ukrayna qoşunlarının Donbas ərazisindən çıxarılması barədə qərar qəbul etməlidir: "İki aya gəlincə, burada söhbət iki aydan getmir. Zelenski artıq bu gün Ukrayna qoşunlarının Donbas ərazisini tərk etməsi və inzibati sərhədlərdən kənara çıxması barədə qərar qəbul etməlidir. Bu, dəfələrlə deyilib. Əslində, Zelenski bu qərarı dünən qəbul etməli idi", - o bildirib.

Peskov həmçinin qeyd edib ki, Rusiya tərəfinin qiymətləndirməsinə görə, Ukrayna Silahlı Qüvvələrinin Donbas ərazisindən çıxarılması qərarı münaqişənin aktiv fazasının dayandırılmasına kömək edə bilər.

# Əfqanıstan və Pakistan Çində danışıqlar aparır



Əfqanıstan və Pakistan nümayəndələri Çinin iştirakı ilə üçtərəfli mexanizm çərçivəsində sərhəddəki münaqişənin həllinə dair danışıqlar aparırlar.

Bu barədə "Dawn" qəzeti Pakistanın Xarici İşlər Nazirliyindəki mənbəyə istinadən məlumat yayıb.

"Çinin Urumçi şəhərində keçirilən danışıqlar, daha əvvəl bu görüşə kömək etməsi xahişi ilə Çinə müraciət edən Əfqanıstanın təşəbbüsü ilə başlayıb", - qəzetin həmsöhbətləri bildiriblər.

Onların sözlərinə görə, xarici və daxili işlər nazirliklərinin nümayəndələrinin iştirak etdiyi Urumçidəki görüşün məqsədi sərhəddəki hərbi münaqişənin dayandırılması yolları barədə fikir mübadiləsi aparmaqdır. Çin qarşılıqlı etimadın möhkəmləndirilməsi üçün ilk addım kimi iki ölkə arasında ticarətin bərpasına çağırır.

Xatırladaq ki, fevralın 26-sı axşam saatlarında Pakistan və Əfqanıstan sərhədində döyüşlər yenidən başlayıb. Pakistanın müdafiə naziri Xavaca Asif bildirib ki, hazırda onun ölkəsi və Əfqanıstandakı Taliban hökuməti açıq silahlı qarşıdurma vəziyyətindədir.

# Media: ABŞ-ın NATO-dan çıxması müzakirə olunur




Macarıstanın "index.hu" nəşri ABŞ Prezidenti Donald Trampın NATO ilə bağlı son bəyanatlarını və bunun mümkün nəticələrini təhlil edib. Yazıda qeyd olunur ki, Tramp alyansı kəskin tənqid edərək ABŞ-ın NATO-dan çıxmasını ciddi şəkildə nəzərdən keçirdiyini bildirib.

AZƏRTAC xəbər verir ki, nəşrin məlumatına görə, bu mövqe əsasən İran ətrafında yaranmış gərginlik fonunda formalaşıb. Tramp hesab edir ki, ABŞ müttəfiqlərinə, xüsusilə Ukrayna məsələsində ciddi dəstək göstərsə də, Avropa ölkələri Vaşinqtonun hərbi təşəbbüslərinə adekvat cavab verməyib.

Məqalədə qeyd olunur ki, ABŞ rəhbərliyi NATO-nu "kağız pələng" kimi qiymətləndirir və alyansın effektivliyini şübhə altına alır. Bu yanaşma Qərb daxilində ciddi fikir ayrılıqlarının yarandığını göstərir.

Eyni zamanda, Böyük Britaniyanın Baş naziri Kir Starmerlə bağlı tənqidlər də diqqət çəkir. Tramp Londondan daha fəal mövqe gözlədiyini bildirib, lakin Britaniyanın ilkin mərhələdə ehtiyatlı davranması Vaşinqtonda narazılıq yaradıb.

"index.hu" yazır ki, bu ritorika Avropada ciddi narahatlıq doğurur. ABŞ-ın NATO-dan mümkün çıxışı alyansın gələcəyini sual altına qoya və təhlükəsizlik arxitekturasını kökündən dəyişə bilər. Belə bir addımın Rusiyanın mövqelərinin gücləndirəcəyindən və trans-Atlantik münasibətlərdə dərin böhran yaracağından da ehtiyat edilir.

Məqalə ümumilikdə Trampın çıxışlarının yalnız siyasi bəyanat deyil, həm də Qərb ittifaqının gələcəyinə yönəlmiş strateji siqnal kimi qiymətləndirildiyini vurğulayır.

# Seçki, 102-ci baza və Samvel Karapetyan...

## Paşinyanın Moskva səfərinin pərdəarxası

Ermənistanın baş naziri Nikol Paşinyanın Rusiyaya səfəri böyük maraq və təəccüb doğurub. İstər Ermənistanın, istərsə də Qərb dünyasının mediası bu səfəri fərqli istiqamətlərdə izah edirlər. Qeyd edək ki, dünən Nikol Paşinyan Moskvada Rusiya Prezidenti Vladimir Putin ilə görüşüb. Kreml hələ səfərdən öncə Rusiya və Ermənistan arasında strateji tərəfdaşlıq və müttəfiqlik münasibətlərinin hazırkı vəziyyətinin və perspektivlərinin, Avrasiya məkanında inteqrasiya əməkdaşlığının, eləcə də regional gündəliyin aktual məsələlərinin, xüsusilə Cənubi Qafqazda iqtisadi və nəqliyyat-logistika əlaqələrinin inkişafının müzakirə edilməsinin planlaşdırıldığını bəyan etmişdi.

Maraqlıdır ki, bundan öncə Paşinyan bir neçə dəfə Rusiyaya səfərini təxirə salıb. Ermənistan hökumətinin rəhbəri KTMT və MDB müstəvisində görüşlərdə iştirakdan imtina edib. Bu isə onun son illərdə tutduğu "qərbpərəst" siyasi xətti ilə əlaqələndirilirdi. Aİ üzvlüyünə namizədlik hədəfi müəyyənləşdirən Ermənistan son illərdə açıq şəkildə Moskvanın orbitindən imtina edərək Kremlə rəqib düşərgənin çətiri altına sığınıb. Bu mənada Paşinyanın Moskva səfərinin müəmmaları olduqca maraqlıdır.

### Seçkinin "pul" mərhələsi

Qərb mətbuatı bu səfəri Ermənistanda palament seçkilərinə cəmisi 2 ay qalmış "strateji həmlə" kimi dəyərləndirir. Seçkilərdə Paşinyanın əsas rəqibləri olan Samvel Karapetyanın və Robert Köçəryanın şansları bir müddət öncəyə qədər aşağı qiymətləndirilirdisə, indiki halda vəziyyət müəyyən mənada dəyişib. Xüsusilə Rusiya vətəndaşı olan Samvel Karapetyan Paşinyan üçün "qorxulu yuxu" ya çevrilməkdədir. Ev dustaqlığında olan Karapetyan geniş maddi imkana malikdir - bu isə, onsuz da sosial cəhətdən acınacaqlı vəziyyətdə olan Ermənistanda elektorat toplamaq üçün müəyyən mənada şans yaradır. Təsadüfi deyil ki, Paşinyan da öz rəqibini məhz buradan vurmağa çalışır. Er-



məni baş nazir "Facebook" səhifəsində paylaşdığı videoaçıqlamada Korrupsiyaya Qarşı Mübarizə Komitəsi tərəfindən aşkarlanan "səs alma" sxemlərində vətəndaşlara əmtəə kimi yanaşıldığını bildirib. Xatırladaq ki, Ermənistanın Korrupsiyaya Qarşı Mübarizə Komitəsinin verdiyi açıqlamada Taşir Samo tərəfindən təşkil edilən səs alma şəbəkəsi ifşa edilib. Məlumata görə, bu sxem iş adamı Samvel Karapetyanın rəhbərlik etdiyi "Po-Naşemu" hərəkatı ilə əlaqəlidir. Məlumata görə, vətəndaşlar Metsamor rayonunda yaradılmış "Po-Naşemu" ictimai təşkilatı vasitəsilə rəsmi olaraq işçi kimi qeydiyyatdan keçiblər, lakin əslində prosesə seçici kimi cəlb ediliblər. Verilən vəsaitin rüşvət olmasını ört-basdır edilməsi üçün pul maaş kimi təqdim edilib. Hadisə ilə bağlı cinayət işi açılıb, axtarışlar və həbslər aparılıb.

Paşinyan deyib ki, bu, Köçəryan-Karapetyan-Çarukyan qüvvələrinin Ermənistan vətəndaşlarına münasibətini nümayiş etdirən çox vacib bir məqamdır: "Onlar üçün insan, vətəndaş 50, 100, 180 və ya 200 min dramlıq "qablaşdırıla" bilən və müxtəlif vasitəçilər vasitəsilə bu və ya digər siyasi qüvvəyə ötürülə bilən bir maldır". Paşinyan vurğulayıb ki, belə bir yanaşma Ermənistanda baş verən siyasi dəyişikliklərlə ziddiyyət təşkil edir.

Göründüyü kimi, Karapetyan tək revanşist qüvvələrin dəstəyini almaq üçün kampaniya aparmır - həm də özünün əlindəki resurslardan geniş istifadə edir. Paşinyanın Putinlə görüşünün arxa pərdəsinin məhz buna həsr olunacağı bildirilir. Siyasi şərhçilər deyir ki, Paşinyan son addımlarında antiRusiya "dozasını" çoxaldıb. Xüsusilə, Ermənistanın dəmir yollarının Rusiya mülkiyyətindən Ermənistan mülkiyyətinə qaytarılması istiqamətində aparılan fəaliyyət Kremli düşünməyə vadar edib. Qeyd olunur ki, Karapetyana "geniş meydan" açılması da məhz bununla əlaqəlidir. Hətta Paşinyanın öz işini davam etdirməsinə razı olduğu halda, Kreml ona bu yolla "xəbərdarlıq" edir.

### 102-ci baza müəmması...

Digər tərəfdən, son dövrlərdə Gümrüdə yaşanan narahatlıqlar Paşinyan üçün başağrısına çevrilib. Ermənistanın ən böyük şəhərlərindən olan Gümrü əhalisinin Paşinyana müxalif olması sirr deyil - son bələdiyyə seçkilərində baş verənlər də bunu təsdiqlədi. Parlament seçkiləri dövründə isə vəziyyət daha da ağırlaşa bilər. Nəzərə alınmalıdır ki, Rusiya Silahlı Qüvvələrinin 102-ci hərbi bazası qanuni olaraq Ermənistan ərazisində, Gümrüdə yerləşir. Bazada yerləşən xüsusi təyinatlı qüvvələrin seçkiyə müdaxiləsi ilə proqnozlaşdırılmayan bir haldır - bir sıra siyasi şərhçilər bunun mümkünlüyünü istisna etməyiblər. Əgər söhbət Karapetyanı müdafiə etməkdən gedirsə, buna da "qanun" icazə verir. Belə ki, əmr verilsə, Karapetyanı qorumaq üçün xüsusi əməliyyat keçirə bilər. Bu, Rusiya qanunları ilə tənzimlənir. Ermənistan mediası yazır ki, Dövlət Dumasına xaricdə həbs edilən Rusiya vətəndaşlarını qorumaq üçün ordudan istifadəyə icazə verən qanun layihəsi təqdim edilməsi buna rəsmən yol açır.

102-ci bazanın bağlanması üçün açıq təbliğat aparan hazırkı iqtidar son bir neçə ildə buna nail ola bilmədi. Razılaşmaya görə, baza 2040-cı ilədək işini davam etdirməlidir. Paşinyan isə özünü sığortalamaq üçün bu bazanın seçki prosesinə müdaxiləsini zərərsizləşdirməlidir. Siyasi analitiklərin fikrincə, qarşıdakı dövrdə müəyyən məsələlərdə Rusiya - Ermənistan razılaşmalarının da şahidi olmaq mümkündür - Paşinyanın 102-ci bazanın sükutunun qarşılığında nələr vəd edəcəyi isə bəlli deyil...

**SADİQ**

# Parisin qərarı, Trampın xəbərdarlığı...

İranla müharibənin davam etməsi ABŞ-ın Avropa müttəfiqləri ilə münasibətlərində də müəyyən soyuqluq yaradıb. Bugünlərdə Parisin ABŞ hərbi təyyarələrinin Fransanın hava məkanı ilə İsrailə uçmasına icazə verməməsi Prezident Donald Trampı hiddətləndirib. Tramp özünün "Truth Social" sosial şəbəkəsindəki səhifəsində yazıb: "Fransa hərbi yüklərlə İsrailə yollanan ABŞ təyyarələrinin öz ərazisi üzərindən uçmasına icazə vermədi". Onun sözlərinə görə, Fransa bu addımları ilə İrana kömək göstərib. D.Tramp ABŞ-ın bunu unutmayacağını da söyləyib.

### ABŞ Prezidentindən NATO müttəfiqlərinə xəbərdarlıq

Xatırladaq ki, ABŞ-ın Hörmüz boğazında gəmiçiliyi bərpa etmək üçün koalisiya yaratmaq cəhdləri də heləli nəticə verməyib. Bu barədə "Axios" portalı mənbələrə istinadla məlumat yayıb. Amerikanın tərəfdaşlarının bəziləri koalisiyaya qoşulmaqda tərəddüd edir, bəziləri isə "yox" cavabı verir. Mənbələr bildirib ki, Tramp administrasiyası Böyük Britaniya, Fransa, Almaniya, İtaliya, Avstraliya, Kanada, Körfəz ölkələri və İordaniyanı belə bir ittifaqa daxil etməyə çalışır. ABŞ eyni təkliflə Yaponiya və Cənubi Koreyaya da müraciət edib. Lakin Almaniya, İtaliya və Yaponiya liderləri bölgəyə dəniz gəmiləri göndərməyi istisna ediblər. Fransa da Vaşinqtona müsbət cavab verməyib. Bundan əvvəl Avropa İttifaqının daimi nümayəndəsi Kaya Kallas Aİ xarici işlər nazirlərinin Hörmüz boğazına hərbi gəmilər göndərməkdən imtina etdiyini açıqlamışdı.

İran müharibəsinin uzanması fonunda ABŞ Prezidenti Donald Tramp bildirib ki, boğazdan faydalanan insanların orada pis proseslərin baş verməməsinin təmin etməyə kömək göstərməsi tamamilə doğru addımdır. "Politico" nəşri yazır ki, Donald Tramp NATO müttəfiqlərini Hörmüz boğazının təhlükəsizliyini təmin etməkdən imtina etdikləri təqdirdə "çox pis bir gələcək" ilə üzləşə biləcəkləri barədə xəbərdar edərək, onları Avropanın əsas dəniz dəhlizini yenidən açmaq üçün Amerikanın səylərini dəstəkləməyə çağırıb.

Tramp "Financial Times" qəzetinə verdiyi müsahibədə isə bildirib ki, Körfəzdən neft daşımalarından faydalanan ölkələr su yolunun təhlükəsizliyini təmin etməyə kömək etməlidir: "Boğazdan faydalanan insanların orada pis proseslərin baş verməməsini təmin etmək üçün kömək göstərməsi tamamilə doğru addımdır. Əgər cavab verilməsə və ya mənfi cavab verilsə, düşünürəm ki, bu, NATO-nun gələcəyi üçün heç də yaxşı olmayacaq". ABŞ lideri müttəfiqlərin mina gəmiləri kimi dəniz aktivlərinə töhfə verə biləcəyini deyib və əlavə edib ki, Avropanın ABŞ ilə müqayisədə daha çox gəmisi var. Bu sözlər Trampın NATO-ya qarşı uzun müddətdir davam edən tənqidini yenidən canlandırır. O, ABŞ-ın Ukrayna məsələsində Avropa müttəfiqlərinə kömək etdiyini və indi də qarşılığında dəstək gözlədiyini iddia edərək bildirib: "Biz çox mehriban olmuşuq".

### Avropa ölkələri müharibəyə qoşulmaq istəmir

Donald Tramp Hörmüz boğazı ətrafındakı məhdudiyyətlər səbəbindən yanacaq təchizatında çətinlik yaşayan ölkələrə də sərt mesaj verib. O, sosial media hesablarında yazıb ki, Böyük Britaniya kimi ölkələr cəsarət göstərərək Hörmüz boğazına getməli və neftı özləri götürməlidir: "İran əməliyyatında iştirakdan imtina edən və Hörmüz boğazındakı məhdudiyyətlər səbəbindən aviasiya yanacağı əldə etməkdə çətinlik çəkən ölkələrə, o cümlədən Böyük Britaniyaya belə bir təklifim var: birincisi, yanacağı ABŞ-dan alın, bizdə kifayət qədər var. İkincisi isə, gecikmiş cəsarətinizi toplayın, boğaza gedin və öz neftinizi özünüz götürün". ABŞ Prezidenti Fransanın da İranla bağlı məsələdə çox aciz davrandığını bildirib və Vaşinqtonun bunu unutmayacağını vurğulayıb.

Lakin Donald Trampın müttəfiqlərə yönəlmiş artan təzyiqlərinə baxmayaraq, Avropa öl-



kələri Vaşinqtonun İranla münaqişə ilə bağlı yardım tələblərini getdikcə daha çox rədd edir. Bu barədə "Politico" nəşri mənbələrə istinadla məlumat yayıb. Məlumata görə, Avropada artan müqavimət bir neçə səbəbdən qaynaqlanır: müharibədən əvvəl ABŞ-la kifayət qədər məsləhətləşmələrin aparılmaması, Vaşinqtonun məqsədləri ilə bağlı qeyri-müəyyənlik və Trampın müttəfiqlərə qarşı sərt ritorikası. Avropalı yüksək vəzifəli müdafiə rəsmisinin sözlərinə görə, əsas problem ABŞ-ın hərəkətləri ilə bağlı aydınlığın olmaması və münaqişə başlamazdan əvvəl demək olar ki, heç bir ciddi məsləhətləşmənin aparılmamasıdır. Digər bir rəsmi isə qeyd edib ki, NATO-nun Şərq cinahında yerləşən ölkələr üçün prioritet məsələ öz ərazi müdafiəsinin təmin olunmasıdır.



### Yelisey Sarayı təkzib edir

Fransa hakimiyyəti Amerika Birləşmiş Ştatlarına məxsus hərbi təyyarələrin ölkə üzərindən uçuşuna məhdudiyyət tətbiq olunmasına dair iddiaları təkzib edib. Bu barədə Yelisey Sarayı açıqlama yayıb.

Açıqlamada, eyni zamanda, ABŞ Prezidenti Donald Tramp tərəfindən səsləndirilən ittihamlardan təəccüb ifadə edilib.

BFMTV-nin yaydığı məlumata görə, Fransa hava məkanının istifadəsinə heç bir əlavə məhdudiyyət qoymayıb və bu baxımdan D. Trampın açıqlamaları həqiqəti əks etdirmir. "Ölkəyə giriş şərtləri əvvəlki kimi qalır və yalnız logistik nəqliyyat təyyarələrinə, xüsusilə "İstres" və "Avor" bazalarına enişə icazə verilir", - deyə məlumatda vurğulanıb.

Qeyd edək ki, ABŞ Prezidenti "Truth Social" platformasında Fransanın İsrailə hərbi avadanlıq daşıyan təyyarələrin öz ərazisi üzərindən uçuşunu qadağan etdiyini bildirib. O, Fransanın bu mövqeyini tənqid edərək, onu "çox az əməkdaşlıq edən" adlandırıb və ABŞ-ın bunu unutmayacağını diqqətə çatdırıb.

### İsrail Fransa nümayəndələrinin səfərini ləğv edib

Yeri gəlmişkən, Fransanın xarici işlər naziri Jan-Noel Barro ABŞ Prezidenti Donald Trampın NATO müttəfiqlərinə yönəlmiş təhdidlərinə toxunaraq bildirib ki, Vaşinqtonun Avropa ölkələrinin hərbi xərclərini artırması ilə bağlı təzyiqləri əslində bir imkandır. Onun fikrincə, bu, NATO daxilində Avropanın rolunun gücləndirilməsi və alyansın daha çox avropalaşdırılması üçün şərait yaradır. Hörmüz boğazı ilə bağlı Barro beynəlxalq naviqasiya təhlükəsizliyi missiyasının yaradılmasını təklif edib. O bildirib ki, bu təşəbbüs Qırmızı dənizdə fəaliyyət göstərən Avropa ASPIDES missiyasına bənzər şəkildə həyata keçirilə bilər. Bu missiya iki il ərzində 600-dən çox gəminin təhlükəsiz keçidini təmin edib.

Parisin məlum qərarı İsrailin də mənfi reaksiyasına səbəb olub. Belə ki, İsrail Fransanın silahlı qüvvələr və veteranlar üzrə nazirinin nümayəndəsi Alis Rufonun Təl-Əvivə planlaşdırılan səfərini ləğv edib. Bildirildiyinə görə, bu qərar rəsmi Parisin Amerika Birləşmiş Ştatlarına məxsus olan və İsrailə silah daşıyan təyyarələrin Fransa hava məkanından keçməsinə icazə verməməsi fonunda qəbul olunub. Səfərin bazar günü həyata keçirilməsi planlaşdırılırdı.

**N.BAYRAMLI**

# ABŞ BMT-dən çıxır?

## Nizamnamə imkan verir, amma...

2025-ci ilin əvvəlindən aktiv müzakirə predmetinə çevrilən ABŞ-ın Birləşmiş Millətlər Təşkilatından çıxması məsələsi yenidən gündəmə gəlib. Qeyd olunmalıdır ki, ötən dövr ərzində bu addımı stimullaşdıran bəzi qərarların verilməsi beynəlxalq aləmdə müəyyən ajiotaj yaradıb. Məsələn, ötən ilin fevralında ABŞ Konqresinin Respublikaçılar Partiyasından olan üzvlərinin ölkənin BMT-dən çıxmasını və qurumun maliyyələşdirilməsinin dayandırılmasını nəzərdə tutan qanun layihəsini müzakirəyə təqdim etməyə hazırlaşması ilə bağlı xəbər yayılmışdı. Bildirilirdi ki, senator Mayk Linin müəllifi olduğu layihə təqdim edildikdən sonra ölkə təşkilatın tərkibindən çıxmaqla yanaşı, həm də maliyyələşməni tamamilə dayandıracaq.

Bu ilin yanvarında isə Prezident Donald Tramp Birləşmiş Ştatların onlarla beynəlxalq və BMT təşkilatından, o cümlədən əsas iqlim müqavilələrindən, habelə gender bərabərliyini və qadınların səlahiyyətlərini təşviq edən BMT qurumundan çıxacağını açıqladı. O qeyd etdi ki, bu təşkilatlar “ABŞ-ın milli maraqlarına zidd hərəkət edir”. Trampın icra sərəncamı bütün ABŞ federal qurumlarından 31 BMT strukturunun, həmçinin digər 35 qurumun fəaliyyətində iştirakını və onların maliyyələşdirilməsini dayandırmağı tələb edirdi. Vurğulanmalıdır ki, Tramp prezidentliyinin ikinci müddətinin əvvəlindən bəri ABŞ-ın BMT-yə maliyyələşdirməsini azaltmağa, BMT İnsan Hüquqları Şurasındakı iştirakını dayandırmağa və BMT-nin mədəniyyət təşkilatı olan UNESCO-dan çıxmağa çalışırdı. O, həmçinin Ümumdünya Səhiyyə Təşkilatından və Paris İqlim Sazişindən çıxmaq planlarını da açıqlamışdı. ABŞ-ın siyahısına, həmçinin BMT-nin Ticarət və İnkişaf Konfransı, Beynəlxalq Enerji Forumu, BMT-nin Adi Silahlar Reyestri və Sülh Quruculuğu Komissiyası daxil idi.

### Hansı strukturlar tərk edildi?

Nəticə etibarı ilə, artıq ABŞ 30-dan çox BMT strukturu və onlarla beynəlxalq təşkilatdan (ümumilikdə 66 qurum) rəsmən çıxıb və maliyyələşdirməni dayandırıb. Əsas çıxışlar Ümumdünya Səhiyyə Təşkilatı (ÜST), UNESCO, gender bərabərliyi qurumları və əsas iqlim müqavilələrini əhatə edir. Belə ki, Birləşmiş Ştatlar:

- Ümumdünya Səhiyyə Təşkilatından (ÜST) pandemiya dövründə fəaliyyətinə görə tənqid edilərək rəsmən ayrılıb;
- UNESCO-dan (BMT-nin Təhsil, Elm və Mədəniyyət Təşkilatı) İsrailə qarşı qərəzli mövqe səbəbindən çıxıb;
- BMT-nin İnsan Hüquqları Şurasındakı (UNHRC) fəaliyyətinə siyasi qərəzlik ittihamı ilə son verib.

Eləcə də əsas iqlim müqavilələrindən (Ətraf mühitlə bağlı BMT-nin bir çox proqramlarından), Gender bərabərliyi və qadınların səlahiyyətləndirilməsi qurumlarından, Əhali Fondundan (UNFPA) da ayrılıb. Bu addım, ABŞ federal agentliklərinin sözügedən təşkilatlarda iştirakını və maliyyə dəstəyini tam dayandırmasını nəzərdə tutur.

### ABŞ BMT-yə necə üzv oldu?

Qeyd edək ki, ABŞ Birləşmiş Millətlər Təşkilatına ayrıca “sonradan qoşulma” prosesi ilə deyil, onun qurucu üzvlərindən biri kimi daxil olub. 1945-ci ildə II Dünya müharibəsinin sonlarına yaxın San-Fransisko şəhərində BMT-nin yaradılması üzrə konfrans keçirilib. Bu konfrans tarixdə San-Fransisko Konfransı kimi tanınır. 25 aprel - 26 iyun 1945-ci il tarixlərində baş tutan bu konfrans İkinci Dünya müharibəsindən sonra Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsini hazırlamaq və imzalamaq üçün çağırılan 50 dövlətin nümayəndələrinin beynəlxalq səviyyədə ilk görüşü idi. Məhz bu konfrans BMT-ni beynəlxalq təhlükəsizlik mexanizmi kimi təsis etdi. Proses iyunun 26-da 50 ölkənin nümayəndəsi tərəfindən BMT Nizamnaməsinin imzalanması ilə nəticələndi. ABŞ isə bu konfransın əsas təşəbbüskarlarından və təşkilatçılarından biri idi. 24 oktyabr 1945-ci ildə Nizamnamə qüvvəyə mindi və bununla da ABŞ rəsmi olaraq BMT-nin üzvü oldu. Rəsmi Vaşinqton artıq 81 ildir ki, təşkilatda aparıcı rola malikdir və Təhlükəsizlik Şurasının daimi üzvüdür.



### Fayda verirsə, Hə...

“Yeni Azərbaycan” qəzetinə məsələ ilə bağlı fikirlərini bölüşən politoloq Yeganə Hacıyeva bildirib ki, ABŞ-ın BMT-dən çıxacağı ilə bağlı yayılan iddialar son dövrlərdə beynəlxalq informasiya məkanında geniş tirajlanır. Xüsusilə rəsmi Vaşinqtonun bir sıra BMT strukturlarında fəaliyyətini dayandırması bu fikirlərə geniş yer açıb: “Vurğulamaq istədiyim əsas məqam ondan ibarətdir ki, ABŞ-ın BMT-nin hansısa bir qurumundan çıxması, BMT çərçivəsindəki hansısa sazişi tərk etməsi bütövlükdə BMT-dən dövlət olaraq ayrılmaq adlı hüquqi və siyasi hadisə deyil. Hazırkı mərhələdə söhbət ABŞ-ın bütövlükdə BMT-dən tam şəkildə çıxmasından yox, BMT sistemi daxilindəki bəzi institutlarla mexanizmlər və çoxtərəfli öhdəliklər üzərindən münasibətini yenidən qurmasından gedir”.

Onun sözlərinə görə, rəsmi Vaşinqtonun son illərdə tutduğu xətt beynəlxalq sistemi tam tərk etmək yox, həmin sistemi yalnız öz milli maraqları çərçivəsində, daha sərt və daha selektiv formada istifadə etmək strategiyasına əsaslanır. “ABŞ artıq qlobal institutlara əvvəlki kimi “ümumi beynəlxalq məsuliyyət” prizmasından deyil, daha çox “fayda verirsə, qalmalıyıq, məhdudlaşdırırsa, çıxmalıyıq” məntiqi ilə yanaşır. Bu isə, ABŞ-ın nümunəsində dünyada klassik diplomatik çoxvektorluğun necə zəiflədiyini, onun yerini daha praqmatik və güc əsaslı xarici siyasət modelinin aldığını aydın göstərir. Paralel olaraq bu yanaşmanın arxasında duran əsas siyasi məntiq ondan ibarətdir ki, ABŞ beynəlxalq institutlarını öz üzərində hüquqi və siyasi məhdudiyyət yaratmasını getdikcə daha az qəbul edir”, - deyən Y.Hacıyeva bildirib ki, Vaşinqton üçün əsas prioritet artıq qlobal sistemin qaydalarının qoruyucusu missiyası deyil - həmin qaydaların ABŞ-ın geosiyasi manevr imkanlarına xidmət etmə dərəcəsini artırmaqdır.

### ABŞ nə istəyir?

Politoloq vurğulayıb ki, ABŞ onun maraqlarını daha da gücləndirən beynəlxalq strukturlarda fəaliyyəti məqbul sayır. Onun qərarvermə sərbəstliyini məhdudlaşdıran strukturdan isə çıxmaq və ya maliyyəni azaltmaq, siyasi kənarlaşma və iqnor siyasətini gündəmə gətirir. Bu baxımdan, ABŞ-ın BMT ilə münasibətlərində müşahidə olunan gərginlik əslində daha geniş bir qlobal transformasiyanın tərkib hissəsi kimi qəbul edilməlidir: “Dünya nizamı tədricən universal institutların dominantlığından böyük güclərin daha sərt rəqabət mərhələsinə keçid edib. Bu şəraitdə Vaşinqtonun BMT-yə münasibəti də ideoloji və normativ çərçivədən çıxaraq, daha çox güc balansı, təsir imkanları və strateji üstünlük prizmasında formalaşıb. Başqa sözlə, ABŞ üçün əsas məsələ artıq beynəlxalq sistemin qorunması deyil, həmin sistemin Amerika maraqlarına uyğun şəkildə idarə olunmasıdır. ABŞ hazırda BMT və ümumilikdə beynəlxalq institutlarla münasibətini daha sərt, daha seçici və daha praqmatik əsaslarla yenidən qurur. Bu isə qlobal sistemin daha da parçalanmasına, beynəlxalq hüququn selektiv tətbiqinə və böyük güclər arasında rəqabətin daha açıq və kəskin mərhələyə keçməsinə səbəb olur”.

### BMT TŞ təsdiqləməsə...

ABŞ-ın BMT-dən çıxmaq təşəbbüsünə gəldikdə isə, politoloqun fikrincə, bu məsələ beynəlxalq hüquqda tam aydın və birbaşa tənzimlənə bilən prosedur deyil: “BMT Nizamnaməsi hər hansı bir dövlətin BMT-dən könüllü çıxmağına açıq qadağa qoymur. Nəzəri olaraq hər hansı bir ölkə siyasi qərarla təşkilatda iştirakını dayandırdığını bəyan edə, BMT Baş katibini məlumatlandıra və öhdəliklərinin bir hissəsindən faktiki geri çəkilə bilər. Eyni zamanda, BMT nizamnaməsi belə bir çıxış üçün konkret hüquqi mexanizm də nəzərdə tutur. Bu baxımdan, tərketmə hüquqi baxımdan mübahisəli sayılır və daha çox hüququn sərt və dəqiq qaydaları ilə deyil, dövlətlərin siyasi iradəsi və beynəlxalq siyasi münasibətlərin reallığı ilə müəyyən olunur.

BMT-də dövlətlərin hüquqlarının məhdudlaşdırılması və ya üzvlük statusuna təsir edən istənilən addım daha aydın hüquqi çərçivəyə malikdir - burada əsas rol BMT Təhlükəsizlik Şurasına məxsusdur. BMT Nizamnaməsinin 5-ci maddəsinə görə, əgər Təhlükəsizlik Şurası hər hansı dövlətə qarşı preventiv və ya məcburedici tədbirlər tətbiq edibsə, həmin dövlətin hüquq və imtiyazları yalnız Şuranın tövsiyəsi və Baş Assambleyanın qərarı ilə müvəqqəti dayandırıla bilər. Bu isə göstərir ki, BMT sistemində nə sanksiya, nə də istisna mexanizmi Təhlükəsizlik Şurasının siyasi, hüquqi razılığı və təsdiqi olmadan işə düşmür. Xüsusilə söhbət böyük dövlətlərdən və ya Təhlükəsizlik Şurasının daimi üzvləri və ya onların müttəfiqlərindən getdikdə, veto mexanizmi hüquqi normanın tətbiqini əksər hallarda siyasi maraqların girovuna çevirir və onun real işləməsini faktiki olaraq mümkünsüz edir”.

Y.Hacıyeva bildirib ki, BMT ABŞ və ya digər dövlətlər üçün yalnız öhdəliklər platforması deyil, həm də qlobal legitimlik, diplomatik təsir və beynəlxalq qərarvermədə nüfuz vasitəsidir. Vaşinqtonun bu platformadan tam imtinası onun rəqiblərinə, xüsusilə də Çin və Rusiyaya daha geniş geosiyasi boşluq aça bilər.

**P.İSMAYILOV**

# Çin və Pakistanın sülh təşəbbüsləri...

## ABŞ və İran bu təklifləri qəbul edəcəkmi?

Çin və Pakistan Yaxın Şərq regionunda, o cümlədən Fars körfəzində sülh və sabitliyin bərpasına yönəlmiş 5 bəndlik birgə təşəbbüs təqdim ediblər. Pakistan Xarici İşlər Nazirliyinin məlumatına görə, müvafiq təklifləri Çinin xarici işlər naziri Van İ və Pakistan Baş nazirinin müavini, XİN rəhbəri İshaq Dar Pekindəki görüşünün yekunlarına əsasən səsləndiriblər.



### Beş bəndlik təşəbbüsdə nələr var?

Tərəflər bütün zərərçəkmiş ərazilərə humanitar yardımın çatdırılmasının təmin edilməsi zərurətini vurğulayaraq, hərbi əməliyyatların dərhal dayandırılmasına və münaqişənin gələcək eskalasiyasının qarşısının alınmasına çağırıblar. Həmçinin Çin və Pakistan sülh danışıqlarının tezliklə başlanmasına tərəfdar qismində çıxış edərək, İran da daxil olmaqla, region dövlətlərinin suverenliyinə, ərazi bütövlüyünə və təhlükəsizliyinə riayət olunmasının vacibliyini qeyd ediblər. Dialoq və diplomatiyanın münaqişələrin həllinin yeganə səmərəli yolu olduğu vurğulanıb.

Təşəbbüsdə mülki əhalinin və qeyri-hərbi obyektlərin qorunmasına xüsusi diqqət yetirilib. Tərəflər dinc sakinlərə və mühüm infrastruktura, o cümlədən enerji və nüvə obyektlərinə hücumları dayandırmağa, eləcə də beynəlxalq humanitar hüquq normalarına ciddi riayət etməyə çağırıblar. Bundan əlavə, Çin və Pakistan gəmiçiliyin, xüsusilə Hörmüz boğazında təhlükəsizliyin təmin edilməsinin vacibliyini vurğulayaraq, gəmilərin və onların heyətlərinin qorunmasına və normal hərəkətin tezliklə bərpa edilməsinə çağırıblar.

Sonda tərəflər BMT-nin rolunun gücləndirilməsinin və təşkilatın Nizamnaməsinin prinsiplərinə riayət olunmasının tərəfdarı olduqlarını bildirərək, beynəlxalq hüquq əsasında hərtərəfli sülh sazişinin işlənib hazırlanmasının zəruriliyini qeyd ediblər.

### İslamabad görüşündən sonra...

Xatırladaq ki, bir neçə gün öncə Pakistan, Türkiyə, Misir və Səudiyyə Ərəbistanının xarici işlər nazirləri İslamabadda ABŞ ilə İran arasındakı münaqişənin həlli yollarını müzakirə etmişdilər. Pakistanın xarici işlər naziri İshaq Dar deyib: “Biz regionda müharibəyə tez və nəhayət son qoymaq yollarını müzakirə etdik. Bu müharibə heç kimə faydalı deyil, yalnız itkilərə və dağıntılara səbəb olacaq”. Onun sözlərinə görə, ABŞ və İran Pakistanın vasitəçiliyinə müsbət yanaşırlar. Halbuki nə Vaşinqton, nə də Tehran İslamabadın potensial vasitəçi kimi rolunu təsdiqləyib. Ancaq mümkündür ki, Vaşinqton müharibəni dayandırmaq üçün yazılı təkliflərini İslamabadın vasitəçiliyi ilə Tehrana göndərib. Tehran həmin təklifləri rədd edib.

Nəzərə alaq ki, Pakistan Səudiyyə Ərəbistanının hərbi-siyasi müttəfiqidir. Səudiyyə Ərəbistanının vəliəhd şahzadəsi Məhəmməd bin Salman və Pakistanın Baş naziri Şahbaz Şərif 2015-ci ilin sentyabr ayında “Birgə Strateji Müdafiə Sazişi” imzalayıblar. Bu saziş iki ölkə arasında müdafiə sahəsində əməkdaşlığı genişləndirmək və istənilən hücuma qarşı birgə mübarizəni gücləndirmək məqsədi daşıyır. Sazişə görə, tərəflərdən birinə qarşı hər hansı bir hücum hər iki ölkəyə qarşı hücum kimi qiymətləndiriləcək. Bu o deməkdir ki, İran Səudiyyə Ərəbistanı ərazisinə raket atırsa, İslamabad bunu birmənalı şəkildə pisləyərək Ər-Riyadın yanında yer almalıdır. Səudiyyə Ərəbistanının ABŞ-ın İrana qarşı hərbi əməliyyata dəstək verəcəyi barədə xəbərlər də yayılıb. Bu baş verərsə, İslamabad Səudiyyə Ərəbistanını dəstəkləmək məcburiyyətində qala bilər. Bu səbəbdən İran İslamabadın vasitəçilik təşəbbüslərinə müsbət cavab verməyə tələsmir.

### ABŞ mövqeyini dəyişmək istəmir

Yaxın Şərqdə gərginliyin azalması Pakistanın maraqlarına tam cavab verir. Çünki Çin-Pakistan İqtisadi Dəhlizinin (CPEC) tam gücü ilə işləməsi və gəlir gətirməsi üçün bölgədə sabitliyin bərqərarı vacibdir. Sabitliyin bərqərarı Çin üçün də əhəmiyyətlidir. İrana qarşı müharibə və Yaxın Şərqdə artan gərginlik Çinin neft resurslarına çıxış imkanlarını məhdudlaşdırıb. Pakistanla Əfqanıstan arasındakı gərginlik də Çini ciddi narahat edir. Çünki Çin Pakistanla strateji tərəfdaş olması ilə yanaşı, Əfqanıstanın nadir torpaq elementlərinin işlədilməsi məqsədilə bu ölkəyə yatırımlarını artırıb. Dörd ölkənin XİN başçılarının İslamabadda görüşündən sonra Pakistanın xarici işlər nazirinin Çinə səfəri və səfər zamanı 5 bəndlik birgə təşəbbüsün elan olunması bu baxımdan diqqəti cəlb edir.

Xatırladaq ki, Pakistan və İran XİN başçılarının son telefon danışığında İslamabadda xarici işlər nazirlərinin görüşü müzakirə edilmişdi. Telefon söhbətində Abbas Əraqçi bəyan etmişdi ki, region ölkələri və beynəlxalq ictimaiyyət ABŞ ilə İsrailin qanunsuz hücumlarına, beynəlxalq hüquq normalarına zidd addımlarına etiraz etməlidir. İshaq Dar isə ölkəsinin İranın suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini bildirib. Pakistanın XİN rəhbəri region ölkələrinin səyləri ilə müharibənin dərhal dayandırılması, eləcə də regiona təhlükəsizlik və sabitliyin qayıtmasına ümid etdiyini söyləyib.

Nəzərə alaq ki, Çin və Pakistanın təşəbbüslərinə qədər ABŞ müharibənin dayandırılması üçün təkliflə çıxış etmişdi. Bir neçə gün öncə “Bloomberg” mənbələrə istinadən xəbər vermişdi ki, ABŞ İrana müharibəni bitirmək üçün 15 maddəlik plan təqdim edib. Bunlardan 12-si Amerikanın tələbləri, 3-ü isə Tehranın bu tələbləri yerinə yetirəcəyi halda əldə edəcəkləri idi. Bu plan Tehrana Pakistan vasitəsilə çatdırılıb. Planda Vaşinqtonun təkliflərinin böyük hissəsi müharibənin başlanmasına qədər aparılan danışıqların mövzusuna daxildir. Tehran bu dəfə də ABŞ-ın planını rədd edib, əvəzində qarşı tərəfə 5 şərt irəli sürüb.

Belə bir şəraitdə Çin və Pakistanın irəli sürdüyü təşəbbüslərə Tehranla Vaşinqtonun reaksiyası hələ bəlli deyil. ABŞ-ın öz məqsədlərinə çatmaqda israrlı olduğunu nəzərə alsaq, bu təşəbbüslərə müsbət cavab verəcəyi inandırıcı görünmür.

**N.BAYRAMLI**

YENİ AZƏRBAYCAN
http://www.yeniazerbaycan.com
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Spark Press” MMC - 0503548555
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**1 illik abunə - 158,40 AZN**
**6 aylıq abunə - 79,20 AZN**



# Balaca oxucular...

## Azyaşlılarda oxuma mədəniyyətini necə formalaşdıraq?

Hər birimizin uşaqlıq xatirələrində xüsusi yeri olan kitab var. Bəlkə də o kitab bizə ilk dəfə xəyal qurmağı, yaxşı ilə pisi ayırmağı, ya da heç tanımadığımız dünyalara səyahət etməyi öyrədib. Ona görə də kitab hər zaman bilik, zəka, idrak mənbəyi, kamillik zirvəsi hesab edilib. Hətta insanlar ən yüksək keyfiyyətləri mütaliə etməklə qazanırlar. Kitab oxumaq insanın ruhunu qidalandıran, daxilindəki mənəvi boşluğu dolduran əhəmiyyətli bir vasitədir. Böyük şəxsiyyətlərin həyatlarına nəzər yetirdikdə, onların hərtərəfli inkişafında mütaliənin əhəmiyyətli rol oynadığını aydın şəkildə görə bilərik.

Uşaq və yeniyetmələrin də mənəvi, intellektual və estetik inkişafında kitabın rolu danılmazdır. Unudulmamalıdır ki, kitablar fikir müharibəsinin silahlarıdır. Oxuyan və oxuduğunu yaxşı dəyərləndirməyi bacaran insan hər zaman öndədir, fərqlidir, mübahisə və müzakirə bacarığı yaxşı olan biridir... Kitablar hər zaman yanımızdadır, ən sadiq dostlarımızdır. Hər hansı bir məlumat öyrənmək istəsək, kitablar köməyimizə çatar, bütün suallarımızı cavablandırarlar.

**Tarixə nəzər...**

Aprelin 2-si Beynəlxalq Uşaq Kitabı Günüdür. Bu tarixin seçilməsini alman yazıçısı Yella Lepman istəyib. 1967-ci ildən başlayaraq Uşaq Kitabları üzrə Beynəlxalq Şuranın təşəbbüsü və qərarıyla 2 aprel bütün dünyada Beynəlxalq Uşaq Günü kimi qeyd olunmağa başlayıb.

Lepmanın bu istiqamətdəki təklifləri bununla kifayətlənmir. O, hələ 1953-cü ildə uşaq ədəbiyyatı üzrə “balaca nobel mükafatının” - Hans Xristian Andersen mükafatının təsis edilməsini də təklif edib. Həmin ildən etibarən məşhur nağılçının adını daşıyan bu mükafat dünya uşaq ədəbiyyatının ən maraqlı incilərinin müəlliflərinə, dünyanın 20 ölkəsindən 23 yazıçı və uşaq kitabları üçün rəsmi çəkən 17 illüstrasiyaçı - rəssama təqdim olunub. İlk dəfə bu, 1956-cı ildə ingilis nağılçısı Eleanor Fardkona, 1958-ci ildə isə İsveç yazıçısı Astrid Lindqrenə verilib. Sonra bu sırada alman yazıçısı Erix Keçtner, Ceyms Kryuss, italyan Canni Rodari və başqalarının adı yer alıb. Ancaq təəssüflər olsun ki, Azərbaycana bu mükafat hələ ki, qismət olmayıb. Beynəlxalq aləmdə uşaq kitabı üzrə daha bir mükafat da var: bu, son illər nəşr olunan ayrı-ayrı uşaq kitablarının illüstrasiyasına və onların dünyanın müxtəlif dillərinə tərcüməsinə görə təqdim edilən Fəxri Diplomdur.

Uşaq kitablarının tarixi isə daha qədimdir. Bu tarix 1477-ci ildən, antik yunan müəllifi Ezopun mahnılarının yazılı kitab şəklində çap edilməsindən hesablanır. 1658-ci ildə çex maarifçisi və pedaqoqu Y.A.Komenski uşaqlar üçün dünyanı anlatmaq məqsədiylə rəsmlərin yer aldığı kitab nəşr etdirib. XVIII əsrdə uşaqlara öz zövqlərinə görə kitab seçmək imkanı yaranmağa başlayır. D.Defo və C.Sviftin “böyüklər” üçün yazılmış “Robinzon Krunzo” (1719) və “Qulliverin səyahəti” romanları ideal formada uşaqların oxu dairəsinə adaptasiya olundu. Yazılaraq kitablara köçürülən xalq nağıllarına da maraq artıb. Şərqdə “Min bir gecə”, “Ələddin”, “Əli-Baba və qırx quldur”, “Sindibadın yeddi səyahəti” nağılları da qeyd olunmalıdır. Qrim qardaşlarının nağıllar kitabı bu baxımdan diqqət çəkir. 1846-cı ildən başlayaraq Andersonun qələmə aldığı nağılları da uşaqlar günümüzdə də çox sevirlər. Müəlliflərin və kitabların adını çox sadalamaq olar. XIX əsri uşaq ədəbiyyatının “qızıl əsri” sayanlar da çoxdur.



**Körpənin ilk kitabı necə olmalıdır?**

Körpənin əyani olaraq kitabla ilk tanışlığı 1 yaşından başlayaraq mərhələlərlə aparılmalıdır. Qısa və az cümlələrdən ibarət olan, əlvan şəkilli və ən əsası dözümlü materialdan hazırlanmış kitablar seçilməlidir ki, körpə onları vərəqləyərkən cıra bilməsin. Elə kitab seçmək lazımdır ki, şəkilləri böyük və qabarıq səthli olsun. Körpə əllərini səhifə üzərində gəzdirəndə şəkilləri hiss etməyi bacarsın. Elə balaca yaşlardan başlayaraq uşağa hədiyyə kimi rəngli, şəkilli jurnallar, kitabçalar almaq lazımdır. Beləliklə, uşağın gözü kitablara və oxumağa alışacaq.

**Kitabı uşaqlara necə sevdirməli?**

Valideynlərin çoxunu narahat edən məsələlərdən biri uşaqlara nağılları və ya hekayələri kitabdan oxumağın və ya danışmağın hansının daha doğru olması barədədir. Psixoloqlar hər iki metoddan istifadə etməyi tövsiyə edirlər. Onların fikrincə, uşağa nağıl danışmaq uşaqda emosional sferanın inkişafına kömək edəcək, amma mütləq nağılı danışanda, çalışın, oradakı personajları əlinizdən gəldiyi qədər təqlid edə biləsiniz. Beləliklə, nağılı uşaqlara sevdirmək olar. Daha sonra nağılı kitabdan oxumaq lazımdır, bu, uşaqlarda sevdiyi nağılın fonunda kitabı sevməyi öyrədəcək. Mütəxəssislər qeyd edir ki, uşağa birbaşa kitabı sevdirməyə çalışmaq düzgün deyil.

**Kitabı uşağın yaşına görə seçin!**

Uşaqlara kitab seçərkən uşaqların yaşı nəzərə alınmalıdır, çünki seçilən kitab uşağın yaş dövrünə uyğun olmadıqda uşaq o kitabdan zövq ala bilməz və kitaba marağı azalar. 2-3 yaşlı uşaqların nağıl qəhrəmanları onların hər hansı bir əşyası olmalıdır. Məsələn: Sevdiyi oyuncaq, xoşladığı cizgi qəhrəmanı və s. Bu yaşda uşaqlar hər hansı təkrarlayıcı hərəkətləri olan nağılları sevirlər.

4-6 yaşlı uşaqlar daha çox sehrli nağılları dinləməyi sevirlər. 7 yaşdan sonra uşaqlar sehrli nağıllarla bərabər, döyüş, müharibə, faciə, eyni zamanda tərbiyəvi süjetli (xeyir və şər, pislik və yaxşılıq və s.) müxtəlif nağılları dinləyə bilərlər. Valideynlər bu nüansları nəzərə alıb uşaqlarına kitablar seçsələr, uşaqlarında kitablara maraq yaradarlar.

**Uşaq kitab oxumursa...**

Psixoloqların əksəriyyəti müasir dövrümüzdə uşaqların kitaba maraq göstərməməsinin günahını uşaqlarda deyil, valideynlərdə görürlər. Onların fikrincə, əgər ailə uşağa ilk olaraq dinləmə vərdişini öyrətməyibsə, kiçik yaşlarında nağıl dinləmə və danışma vərdişi formalaşdırmayıbsa, yaşına uyğun kitablar əldə etməyibsə, bir uşaqdan necə kitaba maraq tələb edə bilər? Uşaqlarda dərsə və kitaba marağın olmaması ilə bağlı valideynlər psixoloqlara tez-tez müraciət etməli olurlar. Bu problem xüsusən məktəb yaşında olan uşaqlarda müşahidə edilir. Daha sonra isə müəyyən edilir ki, ana öz uşağına heç vaxt nağıl danışmayıb.

*Yeganə BAYRAMOVA*

# Xəstəlik, yoxsa fərqlilik?

## Valideynlər autizmlə bağlı nələrə diqqət etməlidir?

Bəzən bir uşaq gözümüzün içinə baxmır, adını çağıranda reaksiya vermir, ya da saatlarla eyni oyuncağı fırladaraq sakit qalır. Çoxları bunu “özünə qapanma” kimi qiymətləndirir. Amma bu, sadəcə səssizliyin arxasında gizlənən başqa bir dünya - autizmdir.

Autizm bu gün demək olar ki, bütün dünyada geniş yayılıb. İlk dəfə 1911-ci ildə İsveçrə psixiatrı Eyqen Bleyler tərəfindən “Autizm” termini elmi ədəbiyyata gətirilib. “Autizm” yunanca “autos” (özüm) sözündən əmələ gəlib. Daha sonra psixoloq Leo Kanner tərəfindən 1943-cü ildə təyin olunub. Kanner 11 uşaqda gördüyü oxşar xüsusiyyətləri müəyyən edərək, bu sindroma “erkən uşaqlıq autizmi” adını verib.

Autizm erkən yaş dövründə başlayan, sosial münasibətlər və ünsiyyət sferasında problemlərin olması ilə özünü göstərən ümumi inkişaf problemidir. Əlamətləri əsasən 2 yaşından etibarən özünü göstərməyə başlayır. Autizm özünə qapanma, real həyatdan uzaqlaşma kimi təzahür edir. Kifayət qədər geniş yayılmış haldır, belə ki, təxminən min uşaqdan beş nəfərində müşahidə olunur.

### Xəstəlik, psixi pozğunluq, yoxsa simptom?

Bu gün - 2 aprel tarixi bütün dünyada Autizm Məlumatlandırma Günü kimi qeyd olunur. Autizm sindromlu insanların sosial problemlərini öyrənmək, onlara göstərilən diqqət və qayğını artırmaq üçün Birləşmiş Millətlər Təşkilatının qərarı ilə 2008-ci ildən təsis edilən bu günün əsas məqsədi cəmiyyətin diqqətini sözügedən şəxslərin problemlərinə çəkmək, maarifləndirmə tədbirlərinin keçirilməsinə şərait yaratmaqdır. Autizmlə bağlı məlumatlılıq səviyyəsinin artırılması, erkən diaqnoz və müalicənin yayılması nəzərdə tutulub. Həqiqətən də, aparılan araşdırmalar sübut edir ki, dünya autizmlə bağlı hələ də kifayət qədər məlumatlı deyil. Onun xəstəlik, psixi pozğunluq, yoxsa ki, simptom olduğu indiyə qədər dəqiqləşməyib.

Tarixdə autizm olduğu güman olunan şəxsiyyətlər olub. Onlar arasında yaradıcı insanlar, alimlər, bir sıra kəşflərə imza atan mühüm imzalar da az olmayıb. Autizm və onun daşıyıcıları haqqında bədii və sənədli filmlər çəkilib. Ancaq nə həkimlər, nə də psixoloqlar autizmin yaranması və müalicəsi ilə bağlı ortaq qərara gələ biliblər.




Son dövrlərdə uşaqlarda ən çox rast gəlinən xəstəliklər sırasında da bu sindromdan əziyyət çəkənlər çoxluq təşkil etməkdədir. Autizm sindromlu uşaqlarda artıq 2-3 yaşdan etibarən xəstəliyin ilkin simptomları özünü büruzə verir. Ən dəqiq diaqnoz uşağın 3 yaşında qoyula bilər. Lakin valideynin uşaqda olan dəyişikliyi daha tez hiss etməsi mümkündür. Bu sindromun müxtəlif növləri var. Bunlardan Asperger sindromu, atipik autizm və uşaq autizmi son dövrlərdə daha geniş yayılıb.

### Daha çox oğlanlarda rast gəlinir...

Autizm sindromuna daha çox oğlanlarda rast gəlinir. Statistikaya baxdıqda dörd autizmli uşaqdan biri qızdır. Aparılmış tədqiqatlara əsasən dünya əhalisinin təxminən 1 faizi yəni 70 milyona yaxın insan autizmdən əziyyət çəkir. Amerikada aparılan tədqiqatlar göstərir ki, hər 166 uşaqdan biri auitizmə meyillidir, ən son nəticə isə Cənubi Koreyada 2 faiz təşkil edir. Ölkəmizdə bu uşaqların sayı 4000-dən çox olduğu bildirilsə də, rəqəmlər dəqiq deyil. Bir neçə il öncə statistikasına əsasən isə dünyada hər 88 uşaqdan biri, Azərbaycanda isə hər 100 uşaqdan iki-üçü autizmli doğulur. Dəqiq rəqəmlərin olmamasının səbəbi ailələrin bu xəstəliyi gizlətmələri, onların bu xəstəliklə bağlı məlumatsız olmalarıdır. Digər məqam isə onların müxtəlif adlarla qeydiyyata düşmələridir.

### Autizmin səbəbləri

Tədqiqatçılar hələ də uşaqlarda autizmin səbəblərini müəyyən edə bilmirlər. Bu barədə bir çox nəzəriyyə var, lakin onlardan heç biri klinik olaraq təsdiqlənməyib. Əksər tədqiqatçılar uşaq autizminin irsi xəstəlik olduğuna inanırlar. Bu pozuntunun səbəblərindən biri kimi hamiləlik dövründə ananın virus infeksiyası (məxmərək, qızılca, suçiçəyi) olması istisna olunmur. İnfeksiya uşağın beyin strukturundakı üzvi dəyişikliklərə səbəb olur və bu da sonradan uşaq autizminə gətirib çıxara bilər.

### Dərmanlar faydasızdır...

Mövzu barədə “Yeni Azərbaycan”a açıqlama verən klinik psixoloq Gülçin Mehrəliyeva bildirib ki, uşaqlarda autizmin müalicəsi həm psixoloji, həm də fiziki cəhətdən uzun, çətin və mürəkkəb bir prosesdir: “Valideynlər bu uzun prosesə hazırlıqlı olmalı və müalicənin mütləq şəkildə nəticə verməyəcəyini bilməlidirlər. Uşaq autizmini müalicə etmək üçün dərmanlar faydasızdır. Lakin xəstəliyi müşayiət edən simptomları dayandıra bilərlər. Sosial uyğunlaşma və psixiatriya autizmin əsas müalicəsidir.

### Bu qaydalara əməl edilməlidir!

Psixoloqun sözlərinə görə, uşağın müalicəsi yalnız tibb müəssisəsində deyil, evdə, uşaq bağçasında, küçədə aparılmalıdır: “Valideynlərin özlərinin də psixoloq konsultasiyasına müraciət etməsi zəruridir. Çünki autizmli uşağın müalicəsi çətin işdir, bu proses valideynlərin psixikasına mənfi təsir göstərir.

Müalicədə təkrarlamalar əsas şərtlərdəndir. Hər gün eyni bacarıqları təkrarlamaq lazımdır ki, uşaq onları öyrənə bilsin. Ən vacib qaydalardan biri də autizmli uşaqların telefondan uzaq durmasıdır. Bu, onların nitqinə olduqca mənfi təsir göstərir”.

G.Mehrəliyeva qeyd edib ki, autizm xəstəlik yox, sindromdur: “Çünki sindromda ölüm olmur, xəstəlikdə isə bu, mümkündür. Çox təəssüf ki, autizmin müalicəsi mövcud deyil, çünki yaranma səbəbi yoxdur.

Hazırda autizmin yaranmasının dəqiq səbəbləri məlum deyil. Araşdırmalar zamanı bəlli olur ki, autizmin yaranması həm irsi, həm də doğuşdan əvvəlki, doğuş zamanı və sonradan qazanılmış bir sıra inkişafa təsiredici faktorlarla, hamiləlik zamanı baş verən narahatlıqlar, eləcə də uşaqlıqda edilən peyvəndlərlə əlaqədar ola bilər”.

*Yeganə BAYRAMOVA*

Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4976
Sifariş: 403
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova